AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

22 avqust 2017-ci il № 57-60 (9151) www.seanews.az Qiyməti 50 qəpik

BU SAYIMIZDA

"XANKƏNDİ" GƏMİSİNİN TİKİNTİSİ VƏ İSTİSMAR SINAQLARI BAŞA ÇATIB

Sualtı tikinti işləri üçün nəzərdə tutulmuş "Xankəndi" gəmisinin tikintisi və istismar sınaqları Bakı Gəmiqayırma Zavodunda artıq bitib.

Səh. 2

"NƏRİMAN NƏRİMANOV" TANKERİ ƏSASLI TƏMİR OLUNUR

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Nəqliyyat Donanmasına məxsus "Nəriman Nərimanov" tankeri "Bibiheybət" Gəmi Təmiri Zavodunda əsaslı təmirdədir.

Gəmidə olan bütün maşın və mexanizmlər, baş və köməkçi mühərriklər, boru sistemləri, eləcə də nasoslar, separatorlar, soyuducular, kompressorlar sökülərək əsaslı təmir olunur.

Səh. 3

DƏNİZ AKADEMİYASININ NÜFUZU İLDƏN-İLƏ ARTIR

Azərbaycan Dövlət Dəniz Akademiyasının Azərbaycan bölməsi üzrə ixtisaslarına qəbul planı 100% dolub.

Belə ki, 2017/2018-ci tədris ili üzrə Akademiyaya qəbul üçün ümumilikdə 200 yer ayrılıb. Bunlardan 140-ı Azərbaycan bölməsinin payına düşüb.

Səh. 4

"XƏZƏR GÜNÜ"



2006-cı il avqustun 12-də Xəzə dənizinin ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası qüvvəyə mindikdən sonra hər il həmin tarix "Xəzər günü" kimi qeyd edilir.

Səh. 5

KAPİTANSIZ GƏMİ İSTEHSAL OLUNACAQ



Norveçin gübrə istehsalçısı olan "Yara" və naviqasiya sistemləri üzrə ixtisaslaşmış "Kongsberg Gruppe" şirkətlərinin birgə layihəsi çərçivəsində kapitansız gəmi istehsalına başlayıb.

Türkiyə KİV-ləri xəbər verir ki, "Yara Birkeland" adlanacaq bu gəmi 2018-ci ildə bazara çıxarılacaq, 2020-ci ilədək isə dənizdə tamamilə sərbəst, kapitansız hərəkət edəcək.

Səh. 6

AZƏRBAYCANIN İDMAN TARİXİNDƏ İLKƏ İMZA ATILIB

Avqustun 7-də İngiltərənin Valsall şəhərində keçirilən cüdo üzrə Avropa çempionatında Azərbaycanın idman tarixində ilkə imza atılıb.

Səh. 8

UNESCO-NUN İDEYALARINA SƏDAQƏT NÜMUNƏSİ OLAN XOŞMƏRAMLI SƏFİR

Avqustun 13-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı - UNESCO-nun xoşməramlı səfiri adına layiq görülməsinin 13 ili tamam oldu. Həm ölkədə, həm də dünya miqyasında mədəniyyət, təhsil, xeyriyyəçilik, idman və digər sahələrdə çoxşaxəli fəaliyyət göstərən Mehriban xanım Əliyevanın istər Azərbaycan, istərsə də dünya mədəni irsinin qorunması, təbliği və inkişafı istiqamətində gördüyü işlər daim yüksək qiymətləndirilir.

Mehriban xanım Əliyeva UNESCO-nun xoşməramlı səfiri adına Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə layiq görülüb.

UNESCO-nun prinsiplərinə hər zaman sadiq olan Mehriban xanım Əliyeva hələ bu təşkilatın xoşməramlı səfiri təyin olunmazdan əvvəl mədəniyyət sahəsində çoxşaxəli fəaliyyəti, milli-mədəni irsimizin qorunması və təbliği ilə bağlı gördüyü işlərlə həm ölkə daxilində, həm də beynəlxalq miqyasda rəğbət qazanıb. Azərbaycanın müstəqilliyinin ilk dövrlərindən etibarən milli mədəniyyətimizin qorunması sahəsində geniş fəaliyyət göstərən Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 1995-ci ildə Azərbaycan Mədəniyyətinin Dostları Fondu təsis olunub. Onun rəhbərlik etdiyi Fondun dəstəyi ilə müxtəlif illərdə muğam müsabiqəsi, uşaq musiqi festivalı, caz festivalı və digər mədəni tədbirlər keçirilib. Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin daha geniş təbliğ olunması məqsədilə 1996-cı ildə Azərbaycan, ingilis və rus dillərində dərc olunan, dünyanın onlarla ölkəsində yayılan "Azərbaycan - İrs" jurnalını təsis edib.

Şübhəsiz, Mehriban xanım Əliyevanın mədəniyyətə göstərdiyi qayğı ilə əlaqədar fəaliyyətinin böyük bir hissəsi 2004-cü ildə əsası qoyulan Heydər Əliyev Fondu ilə bağlıdır.

Fond mütəmadi olaraq Azərbaycan mədəniyyətini, qeyri-maddi mədəni irsini tanıtmağa yönələn tədbirlər həyata keçirir. Məsələn, hər il Fondun dəstəyi ilə keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı Şərq və Qərb musiqisini, eləcə də məşhur ifaçıları, bəstəkarları bir araya gətirir. Festivala gələn çoxsaylı xarici qonaqlar dünya musiqisinin ən möhtəşəm nümunələrini dinləməklə yanaşı, Azərbaycan musiqisinin gözəl inciləri ilə də tanış olur, xalqımızın musiqi mədəniyyəti barədə aydın təsəvvür əldə edirlər. Həmçinin Heydər Əliyev Fondunun bir sıra dövlət qurumları ilə birgə təşkil etdiyi və 2009-cu ildən keçirilən respublika muğam müsabiqəsi və Beynəlxalq Muğam Festivalı həm Azərbaycanda muğam sənətinə üz tutan gənclərin sayını xeyli artırıb, həm də milli muğamımızı dünyaya tanıdıb.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşkilatçılıq bacarığı sayəsində nüfuzlu "Eurovision-2012" mahnı müsabiqəsi Bakıda ən yüksək səviyyədə təşkil edilib. Bakıda keçirilən bu tədbir müasir musiqi mədəniyyətimizin və müsabiqənin tarixinə parlaq səhifə kimi daxil olub.

Mehriban Əliyevanın rəhbərliyi ilə reallaşdırılan layihələr milli-mənəvi ideallara, humanist, insanpərvər dəyərlərə sadiq gənc nəslin formalaşdırılmasına, gender bərabərliyinin təmini, sivilizasiyalararası dialoqun genişləndirilməsi, nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın dərinləşdirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına istiqamətlənib.

Azərbaycan mədəniyyətinin dünyada təbliğində, eləcə də mədəniyyətlərarası dialoqun genişləndirilməsində BMT-nin ən mötəbər qurumlarından olan UNESCO ilə əlaqələr xüsusi yer tutur. Ölkəmizin UNESCO müsbət əhəmiyyətli hadisə oldu, eləcə də Qeyri-maddi mədəni irsin qorunması üzrə yeni Konvensiyanın təşviqinə əhəmiyyətli dərəcədə töhfələr verdi: "Mehriban Əliyeva UNESCO-nun tamamilə yeni sahəsi olan Qeyri-maddi mədəni irsin qorunması üzrə məsuliyyət daşıyan çox fəal xoşməramlı səfirdir. O, Qeyri-maddi mədəni irs üzrə yeni Konvensiyanı nəinki Azərbaycanda, həmçinin dünyanın digər yerlərində böyük uğurla təşviq edir. Hazırda Qeyri-maddi mədəni irsin qorunması üzrə Konvensiya 160-dan çox ölkə tərəfindən ratifikasiya olunub. Daha məşhur beynəlxalq Konvensiya 190 ölkənin ratifikasiya etdiyi Dünya irsi Konvensiyasıdır. Son zamanlar Qeyri-maddi mədəni irs üzrə konvensiya Dünya irsi üzrə Konvensiyaya böyük sürətlə çatmaqdadır. Şübhəsiz, bu işdə Mehriban Əliyevanın xüsusi əməyi var və o, yeni Konvensiyanın təşviqinə çox mühüm töhfələr verib".

UNESCO-nun baş direktoru İrina Bokova da Mehriban xanım Əliyevanın Azərbaycan-UNESCO əlaqələrinə və dünya mədəniyyətinə töhfələrini yüksək qiymətləndirib.

Bir sözlə, Mehriban Əliyevanın UNESCO ilə əməkdaşlıq çərçivəsindəki fəaliyyəti müxtəlif ölkələrlə mədəni əlaqələrin gücləndirilməsi, sivilizasiyalararası dialoqun genişləndirilməsi istiqamətində mühüm nailiyyətdir. Məhz onun səmərəli fəaliyyətinin nəticəsi olaraq muğam və aşıq sənəti, tar ifaçılıq sənəti, eləcə də Azərbaycan xalçası, Novruz bayramı, kəlağayı sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Bundan başqa, İçərişəhər, Qız qalası və Şirvanşahlar saray kompleksi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Mehriban Əliyevanın mədəniyyət sahəsindəki fəaliyyəti yalnız qeyri-maddi mədəni irsin qorunması və təbliği ilə məhdudlaşmır. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu qədim tarixi abidələrin bərpasına və qorunmasına da xüsusi diqqət ayırır. Məsələn, Fondun dəstəyi ilə 2008-ci ildə Abşeronun ən qədim insan məskənlərindən olan Qala qəsəbəsində Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin yaradılması tarixi keçmişimizi qoruyub saxlamağa, ölkəmizi turizm mərkəzlərindən birinə çevirməyə xidmət edir.

Heydər Əliyev Fondu, həmçinin istər ölkəmizdəki, istərsə də dünyadakı müxtəlif mədəniyyətlərə aid olan abidələrin təmirini və bərpasını həyata keçirməkdədir. Bakıdakı Müqəddəs Məryəm kilsəsinin yenidən qurulması, Strasburq kafedral kilsəsinin, Luvr muzeyinin, Versal sarayının, II Dünya müharibəsi zamanı yanmış və dağıdılmış Berlin qəsrinin, Vatikan arxivlərində qorunan orta əsr əlyazmalarının, Vatikanda Roma katakombalarının bərpası və Romanın Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmiri bu qəbildən olan işlərdir. Bütün bunlar Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi Fondun mədəniyyətlərarası dialoqa verdiyi əməli töhfələrin göstəricisidir. Məhz mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsindəki xidmətləri yüksək qiymətləndirilərək Mehriban Əliyeva UNESCO-nun "Qızıl Motsart" medalına layiq görülüb.

Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileylərinin UNESCO çərçivəsində qeyd edilməsi də bu qurumla əlaqələrin yüksək səviyyəsinin bariz göstəricisidir. Məhəmməd Füzulinin 500 illik, Kitabi-Dədə Qorqud dastanının 1300 illik, "Leyli və Məcnun" operasının ilk tamaşasının, dünya şöhrətli alim akademik Yusif Məmmədəliyevin, görkəmli yazıçı, alim Mir Cəlal Paşayevin 100 illik yubileyləri, habelə bu sıradan olan digər tədbirlər UNESCO çərçivəsində böyük təntənə ilə qeyd edilib.

Mehriban xanım Əliyevanın UNESCO-nun mənzil-qərargahında xoşməramlı səfirlərin toplantılarında, qurumun mötəbər tədbirlərində iştirakı, keçirdiyi görüşlər, UNESCO-nun dünya mədəniyyətinin inkişafında rolu, təhsilin vəziyyəti və digər aktual mövzularda çıxışları da böyük maraqla qarşılanır. Fondun prezidenti həmin tədbirlərdə diqqəti həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəldir, işğal altında olan ərazilərimizdə tarixi, mədəni abidələrimizin məhv edilməsindən narahatlığını bildirir, bir sözlə, UNESCO-nun mötəbər tribunasından Azərbaycan həqiqətlərinin çatdırılması üçün bacarıqla istifadə edir.

UNESCO-nun mənzil-qərargahında Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə gerçəkləşən mədəni tədbirlər, Azərbaycanın inkişafı, tarixi, mədəniyyəti ilə bağlı təqdimatlar, ölkəmizin mədəni abidələri, təbiəti, səfalı yerləri, xalçaçılıq sənəti, mətbəxi barədə bir-birindən maraqlı nəşrlər, kataloqlar da ölkəmizin tanıdılması baxımından böyük önəm daşıyır. Azərbaycanın tanınmış incəsənət ustalarının, eləcə də gənc istedadların UNESCO-nun iqamətgahında möhtəşəm çıxışları isə Azərbaycan mədəniyyətinin zənginliyini, möhtəşəmliyini bir daha nümayiş etdirir.

Mehriban Əliyevanın UNESCO-nun xoşməramlı səfirləri arasında çox böyük nüfuzu var. Qurumda daim nəcib təşəbbüsləri ilə seçilən Mehriban xanım Əliyevanın fəaliyyəti yüksək qiymətləndirilir, onun gördüyü işləri xoşməramlı səfirlər üçün örnək hesab edirlər. Əslində, onun UNESCO-nun xoşməramlı səfiri kimi fəxri missiyası elə beynəlxalq ictimaiyyət tərəfindən göstərilən nadir etimaddır.

Heç şübhəsiz, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən bütün bu işlər dünya mədəniyyətinə, mədəniyyətlərarası dialoqa töhfə olmaqla yanaşı, Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırır.

TƏMİRDƏN SONRA TƏYİNATI DƏYİŞDİRİLƏCƏK "ŞAMAXI" TANKERİ TƏMİZLƏYİCİ STANSİYA KİMİ FƏALİYYƏT GÖSTƏRƏCƏK

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasına məxsus "Şamaxı" tankerinin təmiri uğurla davam edir. Hazırda "Bibiheybət" Gəmi Təmiri Zavodunda gəminin təmiri üzrə son işlər görülür.

İndiyədək gəmidə baş və köməkçi mühərriklər, nasoslar, separatorlar, boru sistemləri, elektrik avadanlıqları, işçi heyətin yaşayış kayutları, sanitar qovşaqlar və yeməkxana təmir olunub.

Gəmi tərsanəyə qaldırılarkən gövdənin yararsız hissələri tamamilə dəyişdirilib. Onun hərəkət-sükan kompleksi, dib-yan armaturları və protektor qurğuları təmir olunduqdan sonra sualtı və suüstü hissələri təmizlənərək rənglənib.



Təmir işləri başa çatdıqdan sonra gəminin təyinatı dəyişdirilərək təmizləyici stansiya kimi fəaliyyət göstərəcək. Bununla əlaqədar gəmidə böyük həcmdə modernizasiya işləri aparılıb. Belə ki, təmir müddətində gəmidə 2 ədəd LMBQ 7000 tipli 10 Bar-lıq elektrik idarəetmə sistemi ilə birlikdə müasir yeni buxar qazanı quraşdırılır. Onun burun hissəsində sağ və sol bortlarda layihə əsasında yeni təmizləyici stansiya inşa olunub və boru xətləri çəkilib. Əvvəlki istifadədə olan təmizləyici stansiyadan fərqli olaraq "Şamaxı" gəmisi özü hərəkət edəcək.

"XANKƏNDİ" GƏMİSİNİN TİKİNTİSİ VƏ İSTİSMAR SINAQLARI BAŞA ÇATIB

Sualtı tikinti işləri üçün nəzərdə tutulmuş "Xankəndi" gəmisinin tikintisi və istismar sınaqları Bakı Gəmiqayırma Zavodunda artıq bitib.

Bu barədə "BP-Azerbaijan" şirkətindən məlumat verilib. Bildirilib ki, gəmi "Şahdəniz-2" layihəsində mühüm bir mərhələdir.

Belə ki, qabaqcıl xüsusiyyətlərə malik yeni "Xankəndi" gəmisi "Şahdəniz Mərhələ 2"-nin sualtı qurğularının daşınması və quraşdırılmasında əsas işləri görəcək. Bu qurğular Xəzərdə indiyədək quraşdırılmış ən böyük sualtı hasilat sistemi olacaq.

Qeyd edək ki, "Xankəndi" gəmisi 2017-2027-ci illərdə "Şahdəniz Mərhələ 2" layihəsinin sualtı quraşdırma işlərində istifadə ediləcək. 378 mln. dollar dəyərində olan "Xankəndi" gəmisi "DNV GL" şirkətinin (Norveç-Almaniya) təsnifat nəzarəti altında tikilib. Onun uzunluğu 155 metr, eni 32 metr, əsas göyərtəsi isə 13 metrdir. Gəminin 2,5 metr hündürlüyündə dalğalarda fəaliyyət göstərə bilmək üçün dinamik mövqələndirmə sistemi, 600 metrədək sualtı əməliyyatlar aparmaq üçün 900 tonluq əsas kranı, iki ədəd 18 nəfərlik dalğıc kapsulu sistemi, iki ədəd məsafədən idarə olunan aparatı, möhkəmləndirilmiş avadanlıq endirmə şaxtası, 6 ədəd 4,4 MVt və 2 ədəd 3,2 MVt gücündə generatoru olan iki mühərrik bölməsi olacaq. Onun ümumi çəkisi 17 600 tondur və suya oturumu 6,5 metr olmaqla daşıma gücü 5 000 ton təşkil edəcək.

"ŞAHDƏNİZ-2" ÜZRƏ ÜMUMİ İŞLƏRİN 95 FAİZDƏN ÇOXU TAMAMLANIB

"BP-Azerbaijan" şirkətindən verilən məlumata görə, cari ilin birinci yarısında "Şahdəniz Mərhələ 2" layihəsinin tikinti işləri uğurla davam edib. Hazırda layihə üzrə işlər - mühəndis işləri, təchizat və tikinti işləri də daxil olmaqla - ümumilikdə 95 faizdən çox tamamlanıb və bu layihədən ilk qazın 2018-ci ildə əldə edilməsi planına uyğundur.

Ölkədəki bütün tikinti-quraşdırma və istehsalat sahələrində - həm dənizdə, həm də quruda, o cümlədən Səngəçal terminalı, Bakı yaxınlığındakı "ATA" (AMEK/Tekfen/Azfen) sahəsi, Bakı dərin özüllər zavodu və boru kəməri marşrutu boyunca layihə işləri davam edir.



İyun ayında layihə daha bir mühüm hadisəni qeyd edib – "Şahdəniz Mərhələ 2" üçün tikilən platformalardan birinin üst modulları yola salındı və dənizdə quraşdırılıb. Yaşayış blokları və texnoloji təchizat platformasının üst modullarının yola salınması münasibətilə təşkil olunan rəsmi mərasimdə Prezident İlham Əliyev də iştirak edib.

Dənizdə üst modullar artıq əvvəldən suyun 94 metr dərinliyində quraşdırılmış dayaq blokunun üzərinə oturdulub və uğurla bərkidilib. "ATA" tikinti-quraşdırma sahəsində "Şahdəniz-2" üçün inşa olunan paltformalardan ikincisinin də üst modullarının tikintisi artıq başa çatıb və istismar sınaqları 90 faiz tamamalanıb. Bu modulların dənizə yola salınması və quraşdırılması 2017-ci ilin üçüncü rübünə planlaşdırılır.

Sualtı tikinti işləri üçün nəzərdə tutulmuş "Xənkəndi" gəmisinin tikintisi və istismar sınaqları Bakı Gəmiqayırma Zavodunda artıq bitib və bu da "Şahdəniz-2" layihəsində mühüm bir mərhələdir.

Dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında "Şahdəniz-2"dən əldə ediləcək əlavə qaz həcmlərini emal etmək üçün genişləndirmə işləri uğurla irəliləyir.

Ümumilikdə "Şahdəniz-2" və Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi (CQBKG) üzrə tikinti işlərinin ən qızğın vaxtlarında Azərbaycanda 24 mindən çox insan bütün əsas müqavilələr üzrə işlərə cəlb olunub ki, onların da 80 faizdən çoxu Azərbaycan vətəndaşlarıdır.

SƏNGƏÇAL TERMİNALINDAN 124 MİLYON BARRELDƏN ÇOX NEFT VƏ KONDENSAT İXRAC EDİLİB

Bu ilin yanvar-iyun aylarında Səngəçal terminalı üçüncü tərəf həcmləri də daxil olmaqla 141 milyon barreldən çox neft və kondensat, o cümlədən 124 milyon barreldən çox Bakı-Tbilisi-Ceyhanla (BTC), təxminən 15,5 milyon barreldən çox Qərb İxrac Boru Kəməri marşrutu (QİBK) və təqribən 1,5 milyon barrel kondensat ixrac kəməri vasitəsilə ixrac edib.

"BP-Azerbaijan" şirkətindən bildirilib ki, birinci yarım ildə terminaldan həmçinin gündəlik orta hesabla 28 milyon standart kubmetr (987 milyon standart kubfut) "Şahdəniz" qazı ixrac olunub.

Hesabat dövründə AÇG və "Şahdəniz" yataqlarından neft və qazın sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam edib. Terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda 1,2 milyon barrel neft və "Şahdəniz" qazı üçün təqribən 29,5 milyon standart kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 49,3 milyon standart kubmetr təşkil edir.

Qaz terminaldan əsasən Cənubi Qafqaz Boru Kəməri (CQBK) və terminalın qaz emalı obyektlərini "Azəriqaz"ın qazpaylama sistemi ilə birləşdirən SOCAR-a məxsus qaz kəməri ilə ixrac olunur.

AVROPA-QAFQAZ-ASİYA NƏQLİYYAT DƏHLİZİ İLƏ DAŞINMIŞ YÜKLƏRİN HƏCMİ 7,4 FAİZ ARTIB

Bu ilin yanvar-iyun aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 25650,8 min ton, yük dövriyyəsi isə 5385,6 milyon ton-kilometr olub.

Dövlət Statistika Komitəsinin mətbuat xidmətindən bildirilib ki, yüklərin 15512,7 min tonu və ya 60,5 faizi avtomobil nəqliyyatı, 6614,0 min tonu və ya 25,8 faizi dəmir yolu nəqliyyatı, 3524,1 min tonu və ya 13,7 faizi dəniz nəqliyyatı ilə daşınıb. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə dəhliz vasitəsilə daşınmış yüklərin həcmində 7,4 faiz artım müşahidə edilib.

Dəhliz vasitəsilə daşınmış yüklərin 19,6 faizini və ya 5037,3 min tonunu tranzit yüklər təşkil edib.

BTC KƏMƏRİ İLƏ 17 MİLYON TON NEFT İXRAC OLUNUB

Cari ilin birinci yarısında Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri (BTC) vasitəsilə təqribən 17 milyon ton (125 milyon barrel) xam neft ixrac edilib və həmin neft Ceyhan limanında 159 tankerə yüklənib.

"BP-Azerbaijan" şirkətindən verilən məlumata görə, 1768 kilometr uzunluğa malik BTC boru kəməri 2006-cı ilin iyunundan istismardadır. Həmin vaxtdan 2017-cı il iyun ayının sonunadək BTC ilə ümumilikdə 365 milyon ton (2,74 milyard barrel) xam neft nəql olunub və Ceyhan limanında 3 min 584 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Hazırda BTC boru kəməri Azərbaycandan əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Türkmənistan və Qazaxıstan nefti də nəql olunur.

Yarım ildə BTC üzrə əməliyyat xərclərinə təqribən 64 milyon dollar, əsaslı xərclərə isə 10 milyon dollar sərf edilib.

"BTC Ko."nun səhmdarları beləcə: BP (30,10 faiz), "AzBTC" (25,00 faiz), "Chevron" (8,90 faiz), "Statoil" (8,71 faiz), TPAO (6,53 faiz), "ENI" (5,00 faiz), "Total" (5,00 faiz), "Itochu" (3,40 faiz), "Inpex" (2,50 faiz), "CIECO" (2,50 faiz) və "ONGC (BTC) Limited" (2,36 faiz) şirkətləridir.

AZƏRBAYCAN ƏHALİSİNİN SAYI 0,4 FAİZ ARTIB

Azərbaycan əhalisinin sayı cari ilin əvvəlindən 40 min 96 nəfər və ya 0,4 faiz artaraq 2017-ci il iyul ayının 1-i vəziyyətinə 9 milyon 850 min 77 nəfərə çatıb.

Dövlət Statistika Komitəsindən bildiriblər ki, ümumi əhalinin 53,0 faizini şəhər, 47,0 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Əhalinin bir kvadratkilometrə düşən sıxlığı 114 nəfər olub. Hazırda hər 1000 kişiyə 1006 qadın düşür.

Cari ilin yanvar-iyun ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 68 min 885 doğulmuş körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 14,3 təşkil edib. Doğulan körpələrin 53 faizi oğlan, 47 faizi isə qız uşaqlarıdır. Doğulanlardan 1208-i əkiz, 27-si üçəmdir.

Cari ilin birinci yarısında ölkədə 29 min 477 ölüm halı qeydə alınmış və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,1 olub. 2017-ci ilin ilk 6 ayı ərzində qeydiyyat şöbələri tərəfindən 27 min 153 nikah və 7 min 287 boşanma halları qeydə alınmış və əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,6, boşanmaların sayı isə 1,5 olub.

Cari ilin yanvar-iyun ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün 1487 nəfər Azərbaycana gələn, 799 nəfər isə Azərbaycandan gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 688 nəfər təşkil edib.

İKİÜZLÜLƏRİN İKİLİ SİYASƏTİ

Rusiyanın KM.RU portalında Daşnaksütyun partiyasının ən iyrənc xadimlərindən biri olan Qaregin Njdeyə İrəvanda heykəl qoyulmasının kəskin tənqid edildiyi məqalə verilib.

Məqalənin müəllifi Daniil Preobrajinski Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlüyünü xatırladaraq bu cür addımların anlaşılmaz və təzadlı olduğunu qeyd edib.



O yazır ki, iyulun 17-də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv ölkələrin xarici işlər nazirləri İkinci Dünya müharibəsi illərində şəhidlərin xatirəsinə hörmətsizliyin yolverilməzliyi haqqında bəyanatla çıxış ediblər. Bəyanatda vurğulanır ki, tarixin yenidən yazılması, İkinci Dünya müharibəsinin nəticələrinə yenidən baxılması və təhrif edilməsi, nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi cəhdləri istiqamətində atılan məqsədyönlü addımlar qətiyyən yolverilməzdir və qınanılır.

Məqalədə vurğulanır ki, qəbul edilən bəyanata baxmayaraq, hələ 2016-cı ildə İrəvanda Daşnaksütyun Partiyasının ən iyrənc xadimlərindən biri olan Qaregin Njdeyə abidə qoyulub. Bu azmış kimi, Ermənistan prezidenti Serj Sarkisyanın iştirakı ilə abidənin təntənəli açılış mərasimi də keçirilib.

"Sarkisyanın "məclisin səbəbkarı"nın tərcümeyi-halı ilə tanış olmamasını təsəvvür etmək çətindir", - yazan müəllif diqqətə çatdırır ki, hələ XX əsrin əvvəlində Njde Daşnaksütyun işi üzrə cinayətə cəlb olunub və bir neçə il həbsxanada saxlanılıb. Tarixi bilməyənlər üçün xüsusi qeyd edilir ki, Daşnaksütyun inqilabdan əvvəl terrorçu əməliyyatla məşğul olub. İkinci Dünya müharibəsi zamanı Njde nasistlərlə fəal əməkdaşlıq edib, Reyx naziri Rozenberqə müraciət edərək Ermənistanı Almaniyanın müstəmləkəsinə çevirməyi xahiş edib. Almaniyanın məğlubiyyətindən sonra Njde həbs olunub və ona 25 il azadlıqdan məhrum olunma cəzası verilib. 1955-ci ildə o, Vladimir həbsxanasında ölüb. İllər keçdi, SSRİ dağıldı və hazırkı vaxtda Ermənistan rəhbərliyi bu şəxsə paytaxtda abidə ucaltmağa qərar verdi. Njdenin nə Hitler hakimiyyətinin nümayəndələri ilə əməkdaşlığı, nə də ki Ermənistanın Reyxin müstəmləkəsinə çevrilməsi xahişi onun İrəvanda abidəsinin ucaldılmasına mane ola bilmədi. Bu, yeganə misal deyil. 2005-ci ildə Ermənistanın cənubunda Njdenin xatirəsinə memorial kompleks və park salınıb. Ziddiyyət göz qarşısındadır. Bir tərəfdən Ermənistan nasistlərin vasitəçisinə abidə ucaldır, digər tərəfdən isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü kimi diplomatik səviyyədə belə hərəkətləri qınayır.

Müəllif qeyd edir ki, Ermənistan nasizmin, neonasizmin qəhrəmanlaşdırılması, irqçiliyin, ksenofobiyanın və onunla bağlı olan dözümsüzlüyün müasir formalarının eskalasiyasına təkan verən təcrübələrlə mübarizəyə dair BMT Baş Məclisinin qətnamələrinin həmmüəlliflərindən biridir.

"İrəvanda Njdeyə abidənin ucaldılmasını nə ilə izah etmək olar? Bu həmin qətnamənin pozulması deyilmi? Yaxud Ermənistan ikili siyasəti ilə nə demək istəyir?" Suallar təbii ki, açıq qalır.

AZƏRBAYCAN MANATININ DÖVRİYYƏYƏ BURAXILMASINDAN 25 İL ÖTÜR

Milli pul vahidi olan manat 1992-ci il avqustun 15-də tədavülə buraxılıb. Azərbaycan Respublikasının birinci pul emissiyası 1992-ci ildə Fransa Mərkəzi Bankı tərəfindən çap edilib.

Ölkədə pul tədavülünün yaradılmasının və təşkil edilməsinin əsası Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 11 fevral tarixli "Azərbaycan Respublikası Milli Bankının yaradılması haqqında" Fərmanı ilə Milli Bankın yaradılması və Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 15 iyul tarixli "Azərbaycan Respublikası milli valyutasının dövriyyəyə buraxılması haqqında" Fərmanına müvafiq olaraq milli valyutanın dövriyyəyə buraxılması ilə qoyulub.

Bununla əlaqədar olaraq, 1992-ci ilin avqustunda 1, 10 və 250 manatlıq əsginaslar, noyabrında 5, 10, 20 və 50 qəpiklik sikkələr, dekabrında 5 manatlıq əsginas, 1993-cü ilin martında isə 50, 100, 500 və 1000 manat nominallı kağız əsginaslar dövriyyəyə buraxılıb. Azərbaycan Respublikasının 1-ci pul emissiyası 1992-ci ildə Fransa Mərkəzi Bankı tərəfindən çap edilib. Yeni dizaynla 1 və 10 manatlıq əsginaslar həmin şirkətdə istehsal olunub.

1992-ci ilin avqustundan 1994-cü ilin yanvarınadək manat Azərbaycan ərazisində 1 manat : 10 rubl nisbətində rubllar ilə paralel olaraq dövriyyədə ödəniş vasitəsi kimi istifadə olunurdu. Həmin dövrdə Mərkəzi Bank tərəfindən müstəqil pul siyasətinin yeridilməsinə şərait yaratmaq üçün manatın ölkə ərazisində yeganə ödəniş vasitəsi olmasının təsbit edilməsi zərurətə çevrilmişdi. Bu baxımdan ümummilli lider Heydər Əliyevin 1993-cü il 11 dekabr tarixli "Azərbaycan Respublikası milli valyutasının respublika ərazisində yeganə ödəniş vasitəsi elan olunması haqqında" Fərmanı mühüm rol oynadı. Bu fərmanla manatın dövriyyədə yeganə ödəniş vasitəsi olması təsbit edildi və Azərbaycanın rubl zonasından çıxması təmin edildi.

Milli Bank tərəfindən ölkədə nağd pul dövriyyəsinin nizamlanması, nağd pula olan tələbatın optimallaşdırılması məqsədilə 1994-cü ildə 10.000 manatlıq, 1996-cı ildə isə 50.000 manatlıq əsginaslar çap etdirilərək dövriyyəyə buraxılıb.

1994-cü ildə Almaniyada "Giesecke & Devrient" şirkəti tərəfindən istehsal edilən 10.000 manatlıq əsginasın üzərində "Şirvanşahlar" kompleksinin ümumi görünüşü, arxa tərəfində isə ənənəvi olaraq milli ornamentlə haşiyələnmiş çərçivədə həm rəqəmlə, həm də söz ilə nominal verilmişdi.

İngiltərənin "De La Rue" şirkəti tərəfindən çap edilən 50.000 manat dəyərində əsginaslar 1996-cı ildən dövriyyəyə buraxılıb və bu pul vahidinin üzərində orjinal üslubda Naxçıvanda olan memarlıq abidəsi – "Mömünə Xatun türbəsi", arxa hissəsində isə ənənəvi olaraq milli ornamentlə haşiyələnmiş çərçivədə nominalın dəyəri həm rəqəmlə, həm də sözlə verilib.

İngiltərədə 2001-ci ildə "De La Rue" şirkəti tərəfindən yeni dizaynla 1000 manat dəyərində əsginas buraxılıb. Bu əsginas Azərbaycanda neftin çıxarılması və istehsal edilməsinə həsr edilib. Əsginasın dizaynında ənənəvi çərçivələr və ornamentlər istifadə edilib.

Ümumilikdə, Azərbaycan Respublikasının Milli Bankı tərəfindən ölkə iqtisadiyyatının nağd pula olan tələbatının ödənilməsi məqsədilə 1992-2005-ci illər ərzində 5 trilyon 238 milyard manat həcmində 692,5 milyon ədəd əsginas istehsal olunaraq dövriyyəyə buraxılıb. Köhnə nominallı pul nişanları 2006-cı ilin sonuna qədər tədavüldə olub və denominasiya çərçivəsində dövriyyədən geri yığılıb.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 2005-ci il 7 fevral tarixdə "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında" Fərman imzalanıb. Fərmana uyğun olaraq, 2006-cı il yanvarın 1-dən etibarən yeni manata keçidlə əlaqədar 1 yeni manat AZN 5000 köhnə AZM-ə bərabər tutuldu. AZM və AZN-in birgə 1 il ərzində – 2006-cı ildə dövriyyədə oldu və yalnız 2007-ci il yanvarın 1-dən isə yeni manata tam keçid təmin edildi. Lakin AZM-lərin AZN-lərə dəyişdirilməsi prosesinə heç bir məhdudiyyət qoyulmadı və hazırda da bu proses xırda həcmdə olsa da davam edir.

Dövriyyəyə buraxılan yeni manat 1, 5, 10, 20, 50, 100 ekvivalentində olan əsginaslar və 1, 3, 5, 10, 20, 50 metal pul nişanlarından ibarət olub.

Yeni manatın dizaynı ilə bağlı müsabiqənin qalibi Avstriyanın "OeBS" şirkətinin dizayneri, avronun müəllifi Robert Kalina olub. Yeni nəsil pul nişanlarının texniki parametrləri isə İsveçrə Milli Bankının texniki dəstəyi ilə hazırlanıb.

ƏMƏK QABİLİYYƏTİNİN MÜVƏQQƏTİ İTİRİLMƏSİNƏ GÖRƏ VERİLƏN MÜAVİNƏTDƏN VERGİ TUTULUR

Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinət gəlir vergisinə cəlb edilirmi?

Vergilər Nazirliyinin Media və Kommunikasiya Mərkəzindən bildirilib ki, Vergi Məcəlləsinin 98.1-ci maddəsinə əsasən, fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar əldə olunan gəlir - əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlirdir.

Məcəllənin 101.1-ci maddəsinin müddəalarına uyğun olaraq, fiziki şəxslərin aylıq gəlirinin 2500 manatadək olan hissəsindən 14 faiz, 2500 manatdan çox olduqda isə 350 manat əlavə edilir, 2500 manatdan çox olan məbləğin 25 faiz dərəcəsi ilə vergi tutulur. Məcəllənin 102.1.4-cü maddəsinin müddəalarına əsasən, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətlər istisna olmaqla, dövlət müavinətləri fiziki şəxslərin gəlir vergisindən azaddır.

Qeyd olunub ki, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətin ilk 14 təqvim günü sığortaedənin vəsaiti, qalan günləri isə dövlət sosial sığorta haqları hesabına ödənilir. Bu zaman əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətlərdən Vergi Məcəlləsinin 101.1-ci maddəsi ilə müəyyən edilmiş cədvələ uyğun olaraq, ödəmə mənbəyində gəlir vergisi tutulub dövlət büdcəsinə ödənilir.

GÜZƏŞTLƏ MƏNZİL ƏLDƏ ETMƏK HÜQUQU OLAN VƏTƏNDAŞLARIN KATEQORİYALARI GENİŞLƏNDİRİLDİ

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 iyul tarixli 1530 nömrəli və 2017-ci il 21 iyul tarixli 1560 nömrəli Fərmanları ilə güzəştlə mənzil əldə etmək hüququ olan vətəndaşların kateqoriyaları genişləndirildi.

Mənzil İnşaatı Dövlət Agentliyindən bildirilib ki, müvafiq qanunvericilikdə edilmiş dəyişikliyə əsasən, güzəştli ipoteka kreditini almaq və dövlət agentliyinin sərəncamında olan mənzilləri güzəştlə əldə etmək hüququ olan vətəndaşların mövcud kateqoriyalarından biri genişləndirilərək, daha bir yeni kateqoriya əlavə olundu.

Belə ki, "ən azı 15 il dövlət qulluğunda qulluq edən şəxs" adlı mövcud kateqoriya yeni redaksiyada, həmçinin "ən azı 15 il dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxsləri" də əhatə edəcək.

Bununla yanaşı, yeni – "ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilər" kateqoriyası da əlavə olundu. Hər iki kateqoriyaya aid olan vətəndaşlar yaşından və ailə vəziyyətindən asılı olmayaraq güzəştlə mənzil əldə etmək hüququndan yararlana biləcəklər.

Mənzil İnşaatı Dövlət Agentliyi yenilənmiş kateqoriyalara aid bütün vətəndaşların müraciətlərini qəbul etmək məqsədilə "Güzəştli mənzil" elektron sisteminin təkmilləşdirilməsi işini davam etdirir. "Ən azı 15 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxslər" adlı yenilənmiş kateqoriyaya aid vətəndaşların müraciətlərinin qəbuluna artıq başlanılıb.

Müraciətlər "Elektron hökumət" portalında (www.e-gov.az) yaradılmış "Güzəştli mənzil" sistemi vasitəsilə və ya Bakı şəhərində yerləşən 1, 3 və 5 saylı "ASAN xidmət" mərkəzlərində, eləcə də Sumqayıt "ASAN xidmət" mərkəzində qəbul olunur.

"Güzəştli mənzil" elektron sistemində davam edən dəyişikliklər və müvafiq inteqrasiya işləri tamamlandıqdan sonra "ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilər" adlı kateqoriyaya aid vətəndaşların da müraciətlərinin qəbulu başlayacaq. Müvafiq texniki işlər başa çatdırıldıqda "ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilər" kateqoriyasına aid şəxslərin müraciətlərinin qəbulunun başlanma tarixi barədə əlavə məlumat veriləcək.

Hər iki yeni kateqoriyaya aid şəxslər müraciət edərək "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olduqda Mənzil İnşaatı Dövlət Agentliyinin bütün layihələri çərçivəsində inşa olunan güzəştli mənzillərin satışı zamanı artıq qeydiyyatdan keçmiş digər kateqoriyalara aid vətəndaşlarla bərabər hüquqlara malik olacaqlar.

"AKADEMİK TOPÇUBAŞOV" GƏMİ-BƏRƏSİNİN TƏMİRİ YÜKSƏK KEYFİYYƏTLƏ HƏYATA KEÇİRİLİB

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Nəqliyyat Donanmasına məxsus "Akademik Topçubaşov" gəmi-bərəsi təmir olunub.

2017-ci ilin iyulundan "Zığ" Gəmi Təmiri Zavodunda başlayan təmir işləri qısa vaxtda və yüksək keyfiyyətlə həyata keçirilib.

Belə ki, gəmi-bərənin sükan və köməkçi qurğusu, hərəkət mexanizmləri, müxtəlif təyinatlı su, yağ və yanacaq nasosları, köməkçi və baş mühərriklər, avar valı, kinqston qutuları təmir edilib.

Eyni zamanda bərənin sualtı və suüstü hissəsi, yuxarı göyərtələr, maşın şöbəsi mexanizmlərlə birgə təmizlənərək rənglənib.

Dəniz-sınaq yoxlamasından uğurla çıxan gəmi-bərə artıq istismara verilib.

Məlumat üçün bildirək ki, uzunluğu 154.50, eni 18.3 metr olan gəminin maksimal sürəti 15 uzeldir. Bərə göyərtəsinə 28 vaqon götürmək qabiliyyətindədir.

Qeyd edək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Xəzərdə yeganə bərə operatorudur. Hazırda Gəmiçiliyin donanmasında 13 gəmi-bərə var. Onlardan ikisi Ro-Ro tipli gəmidir.

Hazırda bu gəmi-bərələr Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yüklərin daşınmasına xidmət edir. Rəqabətədavamlı xidmət göstərmək üçün istənilən gəmiçilik şirkəti kimi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" də donanmasında gəmi-bərələrinin sayını artırmağa xüsusi önəm verir. Bu məqsədlə Gəmiçilik Bakı Gəmiqayırma Zavodunda 2 unikal "Ro-Pax" tipli gəmi-bərənin tikintisi barədə sifariş yerləşdirib. Bununla da Şərq-Qərb və əks istiqamətdə artması gözlənilən yüklərin daşınması maneəsiz həyata keçiriləcək. Bərələrin sayının artırılması Azərbaycanın regionda nəqliyyat-logistika qovşağına çevrilməsi, ölkənin tranzit potensialının gücləndirilməsi üçün də çox böyük əhəmiyyətə malikdir.

"NƏRİMAN NƏRİMANOV" TANKERİ ƏSASLI TƏMİR OLUNUR



Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Nəqliyyat Donanmasına məxsus "Nəriman Nərimanov" tankeri "Bibiheybət" Gəmi Təmiri Zavodunda əsaslı təmirdədir.

Gəmidə olan bütün maşın və mexanizmlər, baş və köməkçi mühərriklər, boru sistemləri, eləcə də nasoslar, separatorlar, soyuducular, kompressorlar sökülərək əsaslı təmir olunur.

Üzən vasitənin elektrik avadanlıqları və idarəetmə sistemləri yoxlanılıb və hazırda təmir işləri davam etdirilir. Tankerin gövdə hissəsində, yük anbarlarında və ballast çənlərində metalların keyfiyətini müəyyənləşdirmək üçün qüsur baxışı keçirilmiş və gövdə-qaynaq işlərinin təxminən 80%-i yerinə yetirilmişdir.

Sualtı hissəsinə, sükan və köməkçi qurğularına, kinqston qutularına, lövbər zəncirlərinə ətraflı baxış keçirilməsi məqsədilə tanker 6 min ton yük qaldırma qabiliyyəti olan tərsanəyə qaldırılmışdır.

Qeyd edək ki, tərsanədə təmir işləri başa çatdırıldıqdan sonra gəminin sualtı və suüstü hissələri rənglənəcəkdir. Tərsanədə görüləsi işlər 15 gün ərzində başa çatdırılacaq və sonradan təmir işləri zavodda davam etdiriləcəkdir.

Məlumat üçün bildiririk ki, uzunluğu 125.06, eni 16.63 metr olan tankerin maksimal sürəti 11.3 uzeldir. Maye yüklərin daşınmasında istifadə edilən gəminin təmirdən çıxması sentyabr ayının axırlarına planlaşdırılır.

AVTONOM GƏMİLƏRİN İLK SINAQ ZONASI YARADILIB

Finlandiyanın cənub-qərbindəki Botnik körfəzində pilotsuz dəniz nəqliyyatının dünyada ilk dəfə sınaqdan keçiriləcəyi meydança yaradılıb.

"Jaakonmeri" adlandırılan akvatoriyanın uzunluğu 18 kilometr, eni 7 kilometrdir. Arzu edən şirkətlər öz gəmilərini burada sınaqdan keçirə bilər.

"Helsinki Center" portalının məlumatına görə, ilk sınaqlar 2018-ci ilin yazında başlanacaq. Bütün şirkətlər, elmi-tədqiqat institutları, startaplar və hətta ayrı-ayrı şəxslər müraciət edə bilər.

"Dimecc Ltd" şirkətinin həyata keçirdiyi bu layihə "ağıllı" nəqliyyat və "engineering" üzrə ixtisaslaşan bütün tədqiqatçıları, şirkətləri və təşkilatları bir araya gətirir. Dənizçilik sənayesinin əsas aktorlarını əhatə edən "One Sea" ekosistemi də "Dimecc Ltd" şirkətinin himayəsi altında öz fəaliyyətini genişləndirir.

Nigar Cəfərli

MÜHARİBƏ VETERANLARININ YAŞADIQLARI SAHƏYƏ GÖRƏ ƏMLAK VERGİSİNİN MƏBLƏĞİ 30 MANAT AZALDILIR

Vergi Məcəlləsinin (VM) 197.1.1-ci maddəsinə əsasən, rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililər və ya onların hissələri əmlak vergisinin vergitutma obyektidir.

vergiler.az saytı bildirir ki, mülkiyyətində olan yaşayış sahəsinə görə əmlak vergisi onun yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən yaşayış sahəsinin 30 kvadratmetrdən artıq olan hissəsinin hər kvadratmetrinə görə Vergi Məcəlləsi ilə müəyyən edilmiş dərəcələrlə hesablanır və verginin ödənilməsi barədə tədiyyə bildirişi fiziki şəxslərə çatdırılır. Hesablanmış əmlak vergisinin məbləği fiziki şəxslər tərəfindən banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələrindən istifadə edilməklə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilməlidir.

Həmçinin qeyd olunub ki, binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla, qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği 30 manat azaldılır.

Fiziki şəxslərin əmlak vergisi onların xüsusi mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə bina Bakı şəhərində yerləşdikdə 0,4 manat və həmin dərəcələrə Nazirlər Kabinetinin müəyyən etdiyi 0,7-dən aşağı və 1,5-dən yuxarı olmayan əmsallar tətbiq edilməklə hesablanır. Bələdiyyələr əmlak vergisinin ödənilməsi barədə tədiyyə bildirişini vergiödəyicilərinə avqustun 1-dən gec olmayaraq verməlidirlər.

DƏNİZ AKADEMİYASININ NÜFUZU İLDƏN-İLƏ ARTIR

Azərbaycan Dövlət Dəniz Akademiyasının Azərbaycan bölməsi üzrə ixtisaslarına qəbul planı 100% dolub.

Belə ki, 2017/2018-ci tədris ili üzrə Akademiyaya qəbul üçün ümumilikdə 200 yer ayrılıb. Bunlardan 140-ı Azərbaycan bölməsinin payına düşüb. Bu bölmə üzrə müsabiqədə iştirak etmiş abituriyentlərdən 90 nəfər dövlət sifarişi əsasında, 50 nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.

Rus bölməsi üzrə ayrılan 60 yerdən 15-i boş qalıb. Boş yerlərin II mərhələdən sonra tam dolması gözlənilir.

Cari ildə ADDA-ya yüksək balla qəbul olanların sayında xüsusi artım qeydə alınıb. Əvvəlki illərdə 400-dən çox bal toplayan 15-20 abituriyent Akademiyanı seçirdisə, bu il onların sayı 70 nəfərə yaxın olub. Belə ki, tələbə adını qazananların altmış dördü 400-500, altısı 500-600, üçü isə 600-700 arası bal toplayıb.

Azərbaycan Dövlət Dəniz Akademiyasının rəhbərliyi yüksək balla daxil olan 8 nəfəri "AXDG" QSC-nin dəstəyi ilə mükafatlandıracaq. Onların hər birinə noutbuk hədiyyə ediləcək.

Bu il Akademiyaya qəbul üçün üç Türkiyə vətəndaşı da müraciət edib. Onlar hazırda dil kurslarına cəlb olunub. Tələbləri yerinə yetirsələr, Akademiyada ali təhsil almaq hüququ qazanacaqlar.

Sentyabrın 12-də isə Akademiyada tələbələr və valideynləri üçün " Mən tələbə adını qazandım" adlı böyük tədbir keçiriləcək.

Xatırladaq ki, ADDA-ya 4 ixtisas üzrə qəbul aparılır. Bunlar "Gəmiqayırma və gəmi təmiri mühəndisliyi", "Gəmi energetik qurğularının istismarı mühəndisliyi", "Dəniz naviqasiyası mühəndisliyi" və "Elektrik mühəndisliyi" ixtisaslarıdır.

Dəniz Akademiyası respublikada yeganə ali təhsil müəssisəsidir ki, diplomunu 170-dən çox dövlət tanıyır. Bütün tələbələrə pulsuz forma verilir. Həftənin 5 tədris günü tələbələr ödənişsiz yeməklə (səhər yeməyi və naharla) təmin olunurlar. Bundan başqa, yüksək standartlara cavab verən yataqxana da Akademiyada oxuyanların ixtiyarındadır.

Ölkədə ixtisaslı dənizçi kadrların hazırlanması sahəsində yeganə ali məktəb olan Azərbaycan Dövlət Dəniz Akademiyası yeni tədris ilində mütərəqqi yeniliklər edəcək. Akademiyanın daxilində xüsusi "SABAH" qrupları yaradılacaq.

2018/2019-cu tədris ilindən isə "Dəniz naviqasiyası mühəndisliyi" ixtisası üzrə dərslərin ingilis dilində aparılması planlaşdırılır. Bununla bağlı indidən hazırlıqlara başlanılıb.

"PETLİM"Ə DÜNYANIN ƏN BÖYÜK KONTEYNER GƏMİLƏRİ YAN ALA BİLƏCƏK



"Petlim" limanına uzunluğu 350 metrdən çox olan dünyanın ən böyük konteyner gəmiləri yan ala biləcək.

"SOCAR Turkey Enerji A.Ş." (STEAŞ) xəbər verir ki, ikinci fazası da istifadəyə verildiklən sonra "Petlim" Türkiyənin üçüncü böyük limanı olacaq.

İzmirin Əliağa rayonundakı liman iki fazadan ibarətdir və 380 milyon dollara başa gələcək. "Petlim" Egey dənizi hövzəsində ən iritutumlu limandır. Limanda birinci faza üzrə həftənin 5 günü xidmət göstərilir. İkinci fazası da istifadəyə verildikdən sonra liman 1,5 milyon TEU konteyner saxlama gücünə malik olacaq.

SOCAR-ın Türkiyədəki ən böyük aktivi və səhmlərinin təxminən 53 faizi STEAŞ-a məxsus olan "Petkim Petro-Kimya Holding A.Ş."nin törəmə şirkəti "Petlim Limancılık Ticaret A.Ş." öz səhmlərinin 30 faizini 300 milyon dollara "Goldman Sachs" şirkətinə satıb. Hazırda limanın 70 faizlik hissəsi SOCAR-a, 30 faizlik hissəsi isə "Goldman Sachs"a aiddir. "Petlim"i ilk 28 il müddətində Hollandiyanın "APM Terminals" şirkəti idarə edəcək.

ERMƏNİSTANIN YÜKDAŞIMALAR ÜÇÜN İSTİFADƏ ETDİYİ YEGANƏ NƏQLİYYAT DƏHLİZİ YENİDƏN BAĞLANIB

Ermənistanın yükdaşımalar üçün istifadə etdiyi yeganə nəqliyyat dəhlizi uçqunlar səbəbindən yenidən bağlanıb.

Yuxarı Lars sərhəd-keçid məntəqəsinə alternativ yollar axtaran hökumətin bütün cəhdləri növbəti dəfə fiaskoya uğrayıb. Ermənistan tərəfi hər il qış fəslində eyni halla rastlaşsa da bu dəfə əsas magistral bir qədər tez keçilməz olub. Ölkənin Nəqliyyat Nazirliyi bildirib ki, yolda uçqun baş verib. Bu da Yuxarı Larsın bağlanması ilə nəticələnib. İndi buradan istifadə olduqca təhlükəlidir. Onlarla ağırtonnajlı avtomobil sərhədi keçə bilmədiyi üçün günlərdir Ermənistan tərəfdə gözləyir. Sürücülər əsəblərinin tarıma çəkildiyini deyirlər. Onlar eyni halla mütəmadi şəkildə rastlaşırlar.

Ermənistan hökuməti məsələ ilə bağlı hələ qış aylarında Gürcüstanla danışıqlar aparıb. Qarşı tərəfə yeni avtomobil yolunun çəkilməsi təklif edilib, amma Gürcüstan hökuməti bunun milli maraqlarına zidd olduğunu açıqlayaraq Ermənistana yox deyib. Yeni yolun çəkilişi həm maliyyə, həm infrastruktur, həm də ekoloji baxımdan çətin məsələdir. İşğalçılıq siyasətinə görə özünü regionda təcrid vəziyyətinə salan Ermənistanda Yuxarı Lars yolundan məcburən istifadə edilir. Vaxtilə isə Ermənistanın əsas iqtisadi, sənaye magistralları Azərbaycan ərazisindən keçirdi. Lars yolundan isə istifadə belə olunmayıb. Hər il müxtəlif səbəblərdən bağlanan yol dərin böhranın hökm sürdüyü işğalçı ölkəyə küllü miqdarda zərər vurur. Ermənistanın baş naziri Karen Karapetyan alternativ yolar axtardığını açıqlasa da, Gürcüstan tərəfinin cavabından sonra hökumətin cəhdləri fiaskoya uğrayıb.

XƏZƏR DƏNİZİNDƏ KEÇİRİLƏN TAKTİKİ TƏLİMDƏ YÜKSƏK PEŞƏKARLIQ NÜMAYİŞ ETDİRİLİB

Prezident İlham Əliyevin 2013-cü il 11 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası"na əsasən Dövlət Sərhəd Xidməti (DSX) dəniz sərhədlərinin etibarlı mühafizəsi, Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində təhdidlərə qarşı effektiv mübarizə fəaliyyətinin təmin edilməsi və dənizdəki şəraitdən müfəssəl şəkildə xəbərdar olma, müasir texniki imkanlardan istifadə etməklə döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması istiqamətində zəruri tədbirləri davam etdirir.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, avqustun 12-14-də "Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində qaçaqmalçılıq, qeyri-qanuni ticarət, mütəşəkkil cinayətkarlıq və enerji infrastrukturuna qarşı terror-təxribat aktlarının qarşısının alınması zamanı Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən axtarış əməliyyatları keçirməklə terrorçu qrupların zərərsizləşdirilməsi və dəniz təhlükəsizliyinin təmin olunması" mövzusunda taktiki təlim keçirilib.

Taktiki təlimə cəlb olunmuş gəmilərin əksəriyyəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı əsasında yaradılmış Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində inşa edilib. İtisürətli və yüksək üzmə qabiliyyətinə malik, mükəmməl naviqasiya və radiotexniki avadanlıqlarla, müasir silahlarla təchiz edilmiş sərhəd gözətçi gəmiləri taktiki təlimdə yüksək manevr imkanları və döyüş qabiliyyəti nümayiş etdiriblər.

Taktiki təlimin əsas məqsədi Xəzər dənizində neft-qaz yataqları, sualtı boru kəmərlərinin mühafizəsinin təşkili və döyüş əməliyyatlarının aparılması zamanı Dövlət Sərhəd Xidmətinin silahlı birləşmələrinin döyüş hazırlığının yüksəldilməsi, qarşılıqlı fəaliyyətdə komandir heyətinin idarəetmə bacarığının inkişaf etdirilməsi, dənizdə sərhəd axtarışının aparılması, helikopterlərin və gəmilərin raket-artilleriya qurğularından atışların keçirilməsi üzrə praktiki vərdişlərin təkmilləşdirilməsi olub.

Üç mərhələdə on taktiki epizod üzrə keçirilən təlimlərdə neft-qazçıxarma rayonlarının, platformaların, ixrac boru kəmərlərinin mühafizəsi və müdafiəsi ilə bağlı Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin və Çevik Hərəkət Qüvvələrinin gündəlik xidməti şəraitdən fövqəladə şəraitə keçirilməsi və birgə axtarış əməliyyatlarının aparılması, sorğuya cavab verməyərək ərazidən uzaqlaşan gəminin dayandırılması üçün xəbərdarlıq atəşinin açılması, havadan çevik qrupun helikopter vasitəsilə gəmiyə desantlaşdırılması, gəmidə şərti düşmənin terror-təxribat qrupunun zərərsizləşdirilməsi, dayandırılmış gəmiyə təlim keçmiş xidməti itlər və xüsusi axtarış vasitələri ilə baxış keçirilməsi, kütləvi qırğın silahlarının komponentlərinin və narkotik vasitələrin aşkar edilməsi kimi təlim tapşırıqları uğurla icra olunub.

Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin, Çevik Hərəkət Qüvvələrinin helikopterlərinin raket kompleksləri və zenit-artilleriya qurğularından suüstü, sahil və hava hədəflərinə döyüş atışları müvəffəqiyyətlə həyata keçirilib, neft platforması rayonunda kəşfiyyat fəaliyyəti ilə məşğul olan rəqibin pilotsuz uçuş aparatının və tələblərə tabe olmayan üzmə vasitəsinin, şərti düşmənin sualtı təxribat qruplarının və sahildə düşərgə qurmuş şərti terrorçu qruplarının aşkarlanması və məhv edilməsi üzrə tapşırıqlar yüksək dəqiqliklə icra edilib.

Təlimdə qarşıya qoyulan vəzifələr tam həcmdə icra olunub, şəxsi heyət möhkəm intizam, yüksək döyüş hazırlığı və peşəkarlıq nümayiş etdirib.

Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev təlimlərin uğurlu yekunu və yüksək nəticələr münasibətilə şəxsi heyəti təbrik edib, Xəzər dənizində dövlət sərhədlərinin etibarlı mühafizəsinin, döyüş hazırlığının daha da yüksəldilməsinin, neft-qaz hasilatı və daşınması infrastrukturunun təhlükəsizliyinin təmin edilməsinin Dövlət Sərhəd Xidmətinin əsas vəzifələrindən biri olduğunu vurğulayıb, Xəzər dənizində sərhəd mühafizə imkanlarının təkmilləşdirilməsi və şəxsi heyətin peşəkarlığının daha da artırılması üzrə tapşırıqlar verib.

İNŞASI BAŞA ÇATMAYAN EVLƏRİ QEYDİYYATA ALMAQ MÜMKÜNDÜR

Tikilməyən və inşası başa çatmayan evləri qeydiyyata almaq mümkündür.



Əmlak Məsələlər Dövlət Komitəsindən (ƏMDK) AZƏRTAC-a bildiriblər ki, son illər ölkədə həyata keçirilən uğurlu, genişmiqyaslı islahatlar və mövcud qanunvericiliyin təkmilləşdirilməsi iqtisadiyyatın digər sahələri ilə yanaşı, daşınmaz əmlak bazarının və inşaat sektorunun da inkişafına təkan verib. Bu inkişafın göstəricilərindən biri də respublika ərazisində tikinti işlərinin, o cümlədən çoxmənzilli binaların inşasının geniş vüsət almasıdır.

Komitə tərəfindən daşınmaz əmlak idarəçiliyi, daşınmaz əmlakın qeydiyyatı sahəsində müasir çağırışlara əsaslanan yeni mexanizmlər tətbiq olunur. Bu sahənin təkmilləşdirilməsi ilə bağlı hər tərəfli işlər görülür. Bunlardan biri daşınmaz əmlakın qeydiyyatının səmərəsinin və əhaliyə verdiyi faydanın artırılması məqsədilə tətbiq olunan qabaqcadan qeydiyyat mexanizmidir.

Qabaqcadan qeydiyyat - əmlakın tikintisinin hələ başa çatmadığı halda, müvafiq sənədlər əsasında həmin tikilinin qeydiyyata alınmasıdır. Mexanizmin bir sıra üstünlükləri var. Belə ki, artıq bir mənzil bir neçə şəxsə satılmayacaq. Qabaqcadan qeydiyyat vasitəsilə inşa edilmiş çoxmərtəbəli binada yerləşən bir evin və ya qeyri-yaşayış sahəsinin bir neçə vətəndaşın adında olmaq ehtimalı belə ləğv olunur. Eyni zamanda, qabaqcadan qeydiyyat bir sıra iqtisadi və hüquqi əməliyyatların həyata keçirilməsini təmin edir. Ən vacib məsələlərdən biri çıxarış olmadan da ipoteka, bağışlanma, girov qoyma kimi prosesləri yerinə yetirmək mümkündür. Başqa sözlə vətəndaşlar hazır olmayan, tikintisi yarımçıq olan evlər üçün də ipoteka götürə bilər. Həmçinin mexanizm alınan evin sahəsinin çox göstərilməsi kimi halların qarşısını alır. Satılan mənzilin və ya obyektin, həcminin sahəsinin qanunvericiliklə müəyyən edilmiş qaydada dəqiq hesablamasına imkan verir. Eyni zamanda, qabaqcadan qeydiyyat vətəndaşın aldığı mənzilə görə ödədiyi məbləğin rəsmi hesablanmasını təmin edir, bu sahədə vergidən yayınma halları aradan qaldırılır. Bundan başqa, mexanizmin tətbiqi vətəndaşlara ipoteka ilə mənzil sahibi olmaq imkanı yaradır.

Prezident İlham Əliyevin ipoteka kreditlərinin verilməsi şərtlərinə dəyişiklik edilməsi ilə bağlı 2017-ci il 4 aprel tarixində imzaladığı Fərman, daşınmaz əmlakın qabaqcadan qeydiyyatının artmasına imkan verəcək. Belə ki, dəyişikliyə əsasən ipoteka krediti ilə təkcə qeydiyyatdan keçirilmiş evləri deyil, qabaqcadan qeydiyyata alınmış mənzilləri də almaq mümkün olacaq. Bu isə vətəndaşlarda, Mənzil Tikinti şirkətlərində qabaqcadan qeydiyyat mexanizminə marağı artıracaq.

Qabaqcadan qeydiyyatın aparılmasında məqsəd mənzillər üzərində fiziki və hüquqi şəxslərin hüquqlarının qabaqcadan qeydiyyata alınması yolu ilə onların mülkiyyət hüquqlarının qorunmasını, əldə etdikləri və ya inşa etdikləri əmlakdan səmərəli istifadə etməsini, onlara maneəsiz sahiblik etməsini təmin etməkdir. Bundan başqa alqı-satqı zamanı baş verə biləcək qanun pozuntularının aradan qaldırılması, bazarda leqal əmlakların sayının artırılması, vətəndaşların gələcəkdə daha operativ şəkildə çıxarışla təmin olunması da mexanizmin əsas vəzifələrindəndir.

Mexanizm vasitəsilə bütün kateqoriyaya aid edilən əmlaklar - fərdi yaşayış, bağ evi, çoxmərtəbəli yaşayış binaları, həmin binadakı mənzillər, əmlak kompleksi, qurğular qabaqcadan qeydiyyata alına bilər. Hətta vətəndaşın kommersiya obyektlərini də hələ tikilməzdən əvvəl və ya tikintisi yarımçıq olduğu halda qabaqcadan qeydə almaq imkanı var.

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunun 17-ci maddəsi qabaqcadan qeydiyyatın aparıldığı halları, həmçinin bu qeydiyyat üçün hansı sənədlərin lazım olduğunu müəyyən edir. Vətəndaş tikintisinə icazə sənədlərini, plan cizgini və tələb olunan digər sənədləri təqdim etməklə əmlakının qabaqcadan qeydiyyatını apara bilər. Mülkiyyət hüququnun adi qaydada qeydiyyatından fərqli olaraq, qabaqcadan qeydiyyat daşınmaz əmlakın dövlət reyestrindən verilən çıxarışla deyil, arayışla rəsmiləşdirilir.

Arayışda ayrı-ayrı daşınmaz əmlak növləri üzrə lazımi məlumatlar da göstərilir. Məsələn çoxmərtəbəli yaşayış binasına mülkiyyət hüququnun qabaqcadan qeydiyyatı barədə arayışda digər məlumatlarla yanaşı, binanın mərtəbələrinin, girişlərinin sayı, burada nəzərdə tutulan mənzillərin sayı, binanın ümumi sahəsi, o cümlədən yaşayış və qeyri-yaşayış obyektlərinin sahəsi göstərilir. Bu məlumatlar binanın tikintiyə icazə sənədlərindən götürülür. Mənzil üçün arayışlarda onun hansı mərtəbədə yerləşməsi, otaqlarının sayı, ümumi və yaşayış sahəsi göstərilir. Sonradan həmin arayış və kredit müqaviləsi əsasında mənzilin kredit verən bankın xeyrinə ipotekası haqqında müqavilə bağlanır. Bu müqavilə notariat qaydada təsdiqlənərək dövlət reyestrində qeydiyyata alınır.

Tikinti şirkətləri binanın inşası zamanı tikilən hər mənzili əvvəlcədən qeydiyyata aldırmaqla həm öz işini asanlaşdırır, həm də vətəndaşların mənzil ehtiyaclarının təmin edilməsinə şərait yaradır. Qabaqcadan qeydiyyatın məbləğinə gəlincə bildirilməlidir ki, vətəndaşın ödəyəcəyi məbləğ əmlakın sahəsinə, yerləşdiyi mövqeyə və digər parametrlərə görə dəyişir.

Əmlak Məsələləri Dövlət Komitəsi qabaqcadan qeydiyyatla bağlı ictimaiyyət arasında təbliğat və maarifləndirmə işlərini də həyata keçirir.

NEFT-QAZ SAHƏSİNİN APARICI MÜTƏXƏSSİSLƏRİ XƏZƏR TEXNİKİ KONFRANSINDA VƏ SƏRGİSİNDƏ TƏCRÜBƏ MÜBADİLƏSİ APARACAQLAR

Neft və Qaz Sənayesi Mühəndisləri Cəmiyyətinin (SPE) IV Xəzər Texniki Konfransı və Sərgisi noyabrın 1-3-də Bakıda keçiriləcək.

SPE-dən bildiriblər ki, Xəzər regionunun neft-qaz sənayesini təmsil edən yüksəkvəzifəli şəxslər və texniki ekspertlər bu aparıcı regional texniki konfransa gələcəklərini artıq təsdiq ediblər.

SOCAR şirkətinin dəstəyi ilə təşkil edilən konfransda Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan, ABŞ, Avropa və Asiya ölkələrindən neft-qaz sahəsinin peşəkarları, o cümlədən beynəlxalq və milli neft-qaz şirkətlərinin, habelə hökumət orqanlarının, servis şirkətlərinin, ali məktəblərin, qeyri-hökumət təşkilatlarının və digər təşkilatların nümayəndələri iştirak edəcəklər.

"Mənfəət axtarışında" mövzusunda olan builki konfransa üç panel sessiyası daxilidir. Sessiya iştirakçıları Azərbaycanda və bütövlükdə Xəzər regionunda kəşfiyyat və hasilat sahəsinin aktual problemlərini nəzərdən keçirəcək və onların həlli yollarını müzakirə edəcəklər.

Panel sessiyalarında aşağıdakı mövzular işıqlandırılacaq: modernləşdirmə: yeni texnologiyaların tətbiqini və istifadəsini necə sürətləndirməli; lokallaşdırma: ali təhsilin inkişafı və regionun neft-qaz təchizatı sistemi; əməkdaşlıq: neft-qaz sənayesinin əlaqədar tərəfləri innovativ həllər tətbiq etməklə aktivlərin qiymətini necə maksimum həddə çatdıra bilərlər.

Sessiyalarda SOCAR, SOCAR AQS, BP, TOTAL, "ExxonMobil", "DeGolyer and MacNaughton", "Gazprom Neft NTC", "PJSC Novatek", "Dragon Oil", "NC JSC KazMunaiGaz", "TengizChevroil", "Schlumberger", "Halliburton", "Baker Hughes" kimi şirkətlərin, habelə Qazaxıstan Energetika Nazirliyinin ekspertləri çıxış edəcəklər.

Əsas sessiyalarla bərabər, konfransın texniki proqramında 12 texniki sessiya da nəzərdə tutulub. Tədqiqatlara əsaslanan təqdimatların hamısının ümumi mövzusu xərclərin azaldıldığı şəraitdə müasir vasitə, texnologiya və texnikanın Xəzər regionunda necə tətbiq edilməsi məsələsi olacaq.

TANAP-IN DƏNİZ HİSSƏSİNİN TİKİNTİSİ ÜZRƏ ASİYA VƏ AVROPA QİTƏLƏRİNDƏ SAHİL BOYU XƏNDƏKLƏR QAZILIB

Azərbaycan təbii qazının Türkiyəyə və qardaş ölkədən də Avropaya nəqlini nəzərdə tutan Trans-Anadolu qaz boru kəmərinin (TANAP) dəniz hissəsinin tikintisi çərçivəsində Asiya və Avropa qitələrində sahil boyu xəndəklər qazılıb.

Bu barədə AZƏRTAC-a eksklüziv müsahibəsində TANAP-ın baş direktoru Saltuk Düzyol deyib.

"TANAP-ın Dardanel boğazından keçəcək 36 düymlük 18 kilometr uzunluğundakı dəniz hissəsi üçün qoşa boru kəmərinin tikintisi layihə üzrə qrafikə uyğun davam edir. Asiya və Avropa qitələrində sahilboyu yerləşən tikinti meydançalarının və ofislərin inşası artıq başa çatıb. Həmçinin quruda boru kəməri üzrə marşrut xətti artıq tamamlanıb. Bundan başqa, Asiya və Avropa qitələrində sahilboyu xəndəklər qazılıb, dənizin 8-25 metr dərinliyində kanalın qazılması artıq yekunlaşıb", - deyə TANAP-ın baş direktoru bildirib.

Qeyd edək ki, TANAP üzrə Faza-0, yəni 2018-ci ilin iyununda Türkiyəyə ilk təbii qazın verilməsi üçün görüləcək işlər çərçivəsində 1364 kilometr, Faza-1, yəni 2019-cu ilin sonunda Türkiyədən keçməklə Avropaya təbii qazın verilməsi üçün nəzərdə tutulan işlər üzrə isə 440 uzunluğunda xəndək qazılıb. TANAP-ın tikintisi çərçivəsində ümumilikdə 1804 kilometr uzunluğunda xəndək qazılıb. Faza-0 üzrə 1346 kilometr, Faza-1 çərçivəsində isə 347 boru marşrut xətti boyunca düzülüb. Bundan başqa, Faza-0 çərçivəsində 1342 kilometr, Faza-1 üzrə isə 283 uzunluğunda borunun qaynağı tamamlanıb. Ümumilikdə TANAP-ın əsas xətti üzrə 1694 kilometr boru marşrut boyunca düzülüb, 1626 kilometr boru qaynaqlanıb.

TANAP ilə Azərbaycan təbii qazının Türkiyəyə çatdırılması üçün işlərin 87,8 faizi görülüb. 2018-ci il iyun ayının sonuna qədər Faza-0 çərçivəsində işlərin tamamlanması, "Botaş" şirkəti vasitəsilə Türkiyəyə Azərbaycan təbii qazın verilməsi planlaşdırılır. Faza-1 üzrə nəzərdə tutulan işlərin isə 59,6 faizi tamamlanıb. Ümumilikdə TANAP layihəsi çərçivəsində bütün işlərin təxminən 80 faizi icra olunub.

Boru kəmərinin tikintisində hazırda 9 min 581 işçi sahələrdə çalışır. Əlavə işlər və podratçılar da daxil olmaqla TANAP-ın inşasına 10 min 357 nəfər cəlb olunub.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və qardaş ölkədən də Avropaya nəql edəcək TANAP "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan digər layihədir. TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşəcək. Uzunluğu 1850 kilometr olan TANAP-ın Əskişəhərə qədər olan hissəsinin 2018-ci ilin ortasında istismara verilməsi nəzərdə tutulur. Layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 2020-ci ilədək ümumilikdə 6,2 milyard dollar olacağı nəzərdə tutulur.

Boru kəmərinin Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1334 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 450 kilometrdir. Bundan başqa, TANAP 2x36 düym diametrli 18 kilometr uzunluğunda sualtı hissədən də ibarətdir. TANAP-ın tikintisi üzrə ilk mərhələ sona çatdırılıb və hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması imkanı var. Layihənin ümumi dəyərinin isə 9,2 milyard dollar olacağı hesablanır. Layihənin ümumi büdcəsi üzrə indiyədək 3,2 milyard dollara qənaət edilib.

TANAP-ın səhmdarlarının bu layihədə payı belədir: "Cənub Qaz Dəhlizi" QSC - 58 faiz, "Botaş" - 30 faiz və BP şirkəti - 12 faiz.

TAP: YUNANISTANDA BORULARIN 78 FAİZİ, ALBANİYADA İSƏ HAMISI LİMANLARA ÇATDIRILIB

Azərbaycan təbii qazını Avropaya nəql edəcək "Trans-Adriatik" (TAP) qaz boru kəmərinin Yunanıstan hissəsinin inşasında istifadə olunacaq boruların 78 faizi, Albaniyada isə hamısı limanlara çatdırılıb.

Bunu AZƏRTAC-a eksklüziv müsahibəsində boru kəmərinin operatoru olan TAP AG şirkətinin kommersiya və xarici əlaqələr üzrə direktoru Ulrike Andres deyib.





"Yunanıstanda borular Kavala, Saloniki və Aleksandrupolis limanına gəlməkdə davam edir. TAP-ın 550 kilometrlik Yunanıstan hissəsinin tikintisi üçün lazım olan 32 min borunun təqribən 78 faizi limanlara gətirilib. TAP-ın 215 kilometrdən çox Albaniya hissəsinin inşasında istifadə ediləcək 13 min borunun isə hamısı bu ölkədəki Durres limanına çatdırılıb", - deyə TAP AG-nin kommersiya və xarici əlaqələr üzrə direktoru bildirib.

Ulrike Andres qeyd edib ki, TAP-ın 765 kilometrlik Yunanıstan və Albaniya hissəsində marşrut boyunca 507 kilometrdən çox sahə təmizlənib. Yəni, Yunanıstan ilə Albaniyada marşrut xəttinin təxminən 67 faizi təmizlənib. Bundan əlavə, TAP-ın inşası çərçivəsində boruların təxminən 57 faizi qaynaq edilib və boruların təxminən 43 faizi isə xəndəyə endirilib.

Qeyd edək ki, Yunanıstanda TAP kəməri marşrutu üzrə 375 kilometr ərazi təmizlənib, təxminən 347 kilometr borular xətt boyunca düzülüb. Boruların 316 kilometri qaynaq edilib. 229 kilometr borular isə qaynaqlandıqdan sonra torpaq altına basdırılıb. Xətt boyunca 133 kilometr sahə isə tamamilə əvvəlki vəziyyətinə gətirilib.

İndiyədək Albaniyada TAP kəməri marşrutu üzrə 133 kilometr ərazi təmizlənib, 127 kilometr məsafədə borular xətt boyunca düzülüb. Boruların 118 kilometri qaynaq edilib. Təxminən 99 kilometr boru isə qaynaq edildikdən sonra torpaq altına basdırılıb. Xətt boyunca 59 kilometr sahə isə tamamilə əvvəlki vəziyyətinə gətirilib. Fier rayonunda kompressor, Korça regionunda isə ölçmə və klapan stansiyalarında tikinti işləri planlaşdırıldığı kimi irəliləyir.

Xatırladaq ki, TAP-ın təməli keçən il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Boru kəmərinin tikintisi üzrə işlərin təxminən 47 faizi icra olunub. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ilin sonunda Türkiyəyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə bundan təxminən 1 il sonra 2020-ci ilin əvvəllərində planlaşdırılır. Bu ilin ilk rübündə layihə üzrə kompressor stansiyalarının tikintisinə də başlanılacaq. Boru kəmərinin dəniz hissəsi isə 2018-2019-cu illərdə inşa ediləcək.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"-dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

TAP-ın inşasında ümumilikdə 53 mindən çox borudan istifadə olunacaq. Boru kəmərinin Yunanıstan hissəsində 32 min, Albaniya hissəsində 13 min, Adriatik dənizi hissəsində 8 min 750, İtaliya hissəsində isə 660 borudan istifadə ediləcək. Boruların ümumi çəkisi 526 min tondur. Bunun da Albaniya hissəsində 126 min tonu, Yunanıstanda 323 min tonu, dəniz hissəsində 72 min tonu, İtaliyada isə 5 min tonu istifadə olunacaq.

Boru kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan–550 kilometr, Albaniya–215 kilometr, Adriatik dənizi–105 kilometr, İtaliya–8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə-37 düym). Boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçəcək. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

XƏZƏR ADALARININ FAUNA VƏ FLORASI DA ÖYRƏNİLƏCƏK

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Xəzər adalarında ilk dəfə elmi tədqiqatlar aparacaq.

Zoologiya İnstitutundan bildiriblər ki, tədqiqatlar zamanı Neft və Qaz İnstitutu adalarda torpaq əmələgəlmə prosesini, vulkanizmi, Zoologiya İnstitutu isə adaların flora, fauna və landşaftlarını öyrənəcək. Tədqiqatlara ilkin olaraq Çilov adasından başlanılıb. Eyni zamanda, Kür dili, Xərə Zirə, Böyük Tava, Kiçik Tava, Gil adalarında tədqiqatların davam etdirilməsi nəzərdə tutulub. Ekspedisiya iki il davam edəcək. On iki nəfərlik ekspedisiya qrupuna geoloqlar, torpaqşünaslar, landşaftşünaslar, geobotaniklər daxildir.

Xatırladaq ki, bu adaların 80 faizi vulkan mənşəlidir. Müvafiq təşəbbüs həyata keçirilərkən ilk dəfə dron aparatından istifadə ediləcək. Belə ki, dron vasitəsilə ərazinin monitorinqi aparılacaq, bitki aləmi, heyvan və quşların sayı öyrəniləcək. Xəzərdə ilk dəfə aparılan bu tədqiqat AMEA-nın tarixində böyük və tarixi hadisədir. Xəzər adalarının fauna və florası demək olar ki, indiyədək heç vaxt öyrənilməyib.

"XƏZƏR GÜNÜ"

2006-cı il avqustun 12-də Xəzə dənizinin ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası qüvvəyə mindikdən sonra hər il həmin tarix "Xəzər günü" kimi qeyd edilir.

Xəzər Dənizinin Ətraf Mühitinin Mühafizəsi Günü - "Xəzər günü"nün qeyd edilməsində əsas məqsəd dənizin ətraf mühitinin çirklənmədən qorunması, o cümlədən onun bioloji ehtiyatlarının müdafiəsi, mühafizəsi, bərpası, davamlı və səmərəli istifadə edilməsi və bu istiqamətdə əhalinin maarifləndirilməsindən ibarətdir.

Xəzər dənizinin ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası onun sahilində yerləşən beş dövlət arasında regionda təbiəti mühafizə şərtlərini və müvafiq təşkilati mexanizmi əks etdirən ilk hüquqi sazişdir.

Qəbul olunduğu şəhərin adı ilə bağlı olaraq "Tehran Konvensiyası" kimi də tanınan konvensiya Xəzər dənizinin ətraf mühitinin bütün növ mənbələrdən çirklənməsinin qarşısının alınmasına, həmçinin dənizin ətraf mühitinin mühafizəsi, saxlanması və bərpasına qulluq edir. Konvensiyada Xəzər dənizinin bioloji sərvətlərinin davamlı və səmərəli istifadəsinə, ətraf mühitə təsirin qiymətləndirilməsinə, ekoloji monitorinqə və elmi tədqiqatlara aid müddəalar var.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) 2007-ci ildən etibarən hər il ənənəvi olaraq qeyd olunan "Xəzər günü" çərçivəsində müxtəlif tədbirlər keçirir.

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, həmin məqsədlə avqustun 11-də müvafiq dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının, özəl sektorun iştirakı ilə Xəzər dənizinin ekoloji problemləri, görülən işlər və ictimaiyyətin onun mühafizəsi prosesinə cəlb edilməsi mexanizmi müzakirə olunub, eyni zamanda, gənclər və yeniyetmələrlə birgə maarifləndirici tədbirlər təşkil edilib.

Tədbirdə uşaqlara Xəzər dənizinin ətraf mühitinin qorunması haqqında məlumat verilib, inşa müsabiqəsinin mükafatlandırılma mərasimi keçirilib, qaliblərə hədiyyələr təqdim olunub.

Sonra tədbir iştirakçıları "Xəzər dənizinin ekoloji mühitinin mühafizəsi sistemi"nə aid olan və Novxanı qəsəbəsinin sahilboyu zolağında quraşdırılmış modul tipli təmizləyici qurğunun iş fəaliyyəti ilə tanış olublar.

Xəzər dənizinin və sahil zonasının ekoloji vəziyyətinin yaxşılaşdırılmasında ictimaiyyətin rolunu artırmaq və bu sahədə əməkdaşlığı gücləndirmək məqsədilə Novxanı çimərliyinin sahilboyu zonasında ETSN-in əməkdaşları, ictimaiyyət nümayəndələri, yerli özünüidarəetmə orqanları ilə birgə təmizlik aksiyası keçirilərək iki hektar ərazi tullantılardan təmizlənib.

Eyni zamanda, belə maarifləndirici tədbirlər regionlarda və digər Xəzərsahili zonalarda təşkil edilib.

YƏMƏNDƏ AFRİKALI MİQRANTLARIN SAYI 30 MİNİ KEÇİB

2017-ci ilin başlanğıcından bu günə qədər Yəməndə afrikalı miqrantların sayı 30 mini keçib.

Anadolu agentliyi xəbər verir ki, 2016-cı il 117 mindən çox miqrant dəniz yolundan istifadə edərək ölkəyə daxil olub.

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının verdiyi məlumata görə, qaçaqmalçılar təhlükəsizlik xidmətinin əməkdaşlarını gördükləri anda miqrantları suya tullanmağa məcbur ediblər.

Afrika ölkələrindən Yəmənə gələn miqrantlar bir il burada qaldıqdan sonra Səudiyyə Ərəbistanına keçməyə çalışırlar. Bəziləri isə Yəməndə qalmağa üstünlük verirlər. Beynəlxalq Miqrasiya Təşkilatı avqustun 10-da Yəmən sahillərində dənizə atılan və əksəriyyəti gənc olan 120 afrikalı miqrantın 51-nin boğulduğunu açıqlayıb.

KAPİTANSIZ GƏMİ İSTEHSAL OLUNACAQ

Norveçin gübrə istehsalçısı olan "Yara" və naviqasiya sistemləri üzrə ixtisaslaşmış "Kongsberg Gruppe" şirkətlərinin birgə layihəsi çərçivəsində kapitansız gəmi istehsalına başlanılıb.

Türkiyə KİV-ləri xəbər verir ki, "Yara Birkeland" adlanacaq bu gəmi 2018-ci ildə bazara çıxarılacaq, 2020-ci ilədək isə dənizdə tamamilə sərbəst, kapitansız hərəkət edəcək. "Yara Birkeland" eyni ölçüdə standart bir konteyner gəmisinin maya dəyərindən təxminən üç dəfə baha başa gələcək. Ancaq investorlar bildiriblər ki, gəminin hərəkəti üçün lazım olan yanacaq və heyət xərclərinə ildə 90 faiz qənaət ediləcək.

"Yara" şirkətinin nümayəndəsi Petter Ostbonun sözlərinə görə, əvvəlcə heyətli gəmi kimi çalışacaq "Yara Birkeland" 100 konteynerdən ibarətdir. İlk səfərini 37 dəniz mili uzaqlıqdakı Larvik şəhərinə edəcək gəminin yükü gübrə olacaq. Gələcəkdə kapitansız daha böyük gəmilərin hazırlanması nəzərdə tutulub. Həmin gəmilər isə daha uzun marşrut üzrə hərəkət edəcək.



PATRUL GƏMİLƏRİNİN SAYINI ARTIRACAQ

Yaponiya hökuməti Senkaku adaları ətrafında Sahil Mühafizəsi Xidmətinə məxsus patrul gəmilərinin sayını artırmaq niyyətindədir. Məqsəd qarşıdan gələn Çin balıq ovu fəslində bu ölkənin patrul gəmilərinin Yaponiyanın ərazi sularına girməsinin qarşısını almaqdır.

İki ölkə arasında mövcud olan razılaşmaya əsasən, Çin balıqçılıq gəmiləri Şərqi Çin dənizində, Senkaku adaları yaxınlığında Yaponiyaya məxsus ərazi sularının kənarında balıq ovu ilə məşğul ola bilərlər. Senkaku adaları Yaponiyanın nəzarəti altında olsa da, Çin və Tayvan bu adalara iddialıdır.

Ötən il avqustun əvvəllərində balıq ovu fəsli başladıqdan sonra Çin patrul gəmiləri dəfələrlə Senakaku adaları ətrafında Yaponiyaya məxsus ərazi sularına daxil olmuşdular.

BELƏ – BELƏ İŞLƏR

Rasif TAHİROV

TANIMAMIŞAM

Çoxdan görmədiyim tanışımla küçədə rastlaşdım. Özündən on-on beş yaş böyük, üz-gözündən nur tökülən bir adamla şirin-şirin söhbət edirdi. Salam verib yoluma davam etmək istəyəndə:

- Hara gedirsən? Gözlə, səninlə işim var,- dedi.
- Yaxşı!-dedim və onların söhbətinə mane olmamaq üçün kənara çəkildim.

Bir neçə dəqiqədən sonra doğmalar kimi öpüşüb ayrıldılar.

Tanışım mənə yaxınlaşan kimi soruşdu:

- O kişini tanıdın?

Yox mənasında başımı yellətdim. Onu tanımamağımdan deyəsən ürəkləndi.

- Elə tanımasan, yaxşıdır,-dedi.-Çox yaramaz, riyakar adamdır. Bir vaxtlar acından günorta dururdu. İndi özəl şirkəti var deyə adam-zad sayıb eləmir...

Bir az əvvəl bağrına basdığı adam haqqında dediyi xoşagəlməz sözlər ürəyimi açmadığından dedim:

- Bilmirəm. Mənə ilk baxışdan səndən daha yaxşı adam təsiri bağışladı!

Dilimdən çıxan bu kəlmə tanışımı cin atına mindirdi:

- Onu mənə tanıdacaqsan?
- Deyəsən mən onu yox, səni yaxşı tanımamışam,- dedim və dərhal da yeyin addımlarla ondan uzaqlaşmağa çalışdım.

BAŞ NƏ ÜÇÜNDÜR?

İnsanın hər bir orqanının, hər bir əzasının öz funksiyası var. Məsələn, göz – görmək, qulaq - eşitmək, ayaq – yerimək... üçündür. Baş? Bax burda, az qalır Kərəm kimi, məni də ağlamaq tuta. Çünki BAŞIN dəqiq təyinatını çox az adam bilir. Bəzilərinə elə gəlir ki, baş görk üçündür. Baxangörən desin ki, filankəsin də başı var. Yəni baş olmasa, bədənin ümumi görünüşü korlanar. Bəziləri isə düşünür ki, baş, papağa "xidmət etmək" üçündür. Yəni, papağı başa qoyurlar, baş olmasa, papaq üçün problem yaranar. Başqa sözlə, baş papaq üçün asılqan rolunu oynayır.

Hələ bunlar harasıdır? Bəzilərinə görə baş, yemək üçündür. Hər iki mənada. Xaş yeyənlər başı xaş kimi, "baş yeyənlər" başı elə baş kimi yeməyi xoşlayırlar. Beləcə, başı təyinatı üzrə işlətmək tamam yaddan çıxıb və ya sərfəli olmadığı üçün işlətməyə ərinirlər. Hər şeydə, hər yerdə baş işlətməyin vacib olduğunu düşünənlərə isə başı xarab kimi baxır, üstəlik başqalarına da məsləhət görürlər:"Əhəmiyyət verməyin, başı o söz..."

"SƏNİN BURDA NƏ İŞİN VAR?"

Bir tanışım var, harda görür, soruşur ki, sənin burda nə işin var? O gün yenə rastlaşdıq. Adətinə xilaf çıxmayıb, soruşdu:

- Sənin burda nə işin var?

Küçənin tinindəki kitabxanaya işarə edərək:

- Orda işim vardı,- dedim.

İncimiş halda:

- Belə olar da... Yeyib- içmək olanda, biz yada düşmərik.

Nə demək istədiyini əvvəl anlamadım. Sağollaşıb aralananda yenə söz atdı:

- Heç olmasa babat yeyib-içmək verirlər?
- Harda?
- Getdiyin kababxanada?

Məni gülmək tutdu.

- Gələn dəfə səni mütləq aparacağam, -dedim.

SƏN KİMSƏN?

Sən kimsən? İşinin adı nədir? Yenə öz ağlında olanları başına yığıb nə danışırsan? Nədən danışırsan? Deyəsən balıq tutmağı xoşlayırsan. Bulanıq su axtarırsan. Təmiz su görəndə qanın qaralır. Bilmirsən necə bulandırasan?!

Sən kimsən? Başına papaq da qoyursan? Onda yüz ilin küpəgirən qarıları kimi niyə orda elə, burda belə danışırsan? Təkcə suyu yox, ürək də bulandırırsan.

Sən kimsən? Adamsan? Adamlığın hanı bəs? Ara qatmaq, söz gəzdimək, işləyənin əlini işdən soyutmaq adamlıq əlamətidir səncə? Öz mənfi emosiyalarını daim işləyənlərin üstünə niyə "püskürürsən"?

Sən kimsən? Kim olursan ol, nə olursan ol, amma bir az da Adam ol, Adam. Ola bilərsən?

KÜPƏGİRƏN KİŞİ

- O Həsən var e...
- Hansı Həsən?
- O gombul da...
- Hə, tanıyıram. Yaxşı adamdır.
- Elədirsə, onu yaxşı ilan vursun. Nə qədər yerin üstündədirsə, o qədər də yerin altındadır.
- Nə edib o yazıq?
- Daha nə etməlidir ki?! Çoxdan sizin yerinizə keçmək üçün əlləşir.
- Doğrudan?
-Bircə balamın ölmüşünə, düz sözümdür. Mən sizi çox istəyirəm. Yoxsa, nəyimə gərək kim hara keçmək istəyir. Bir də, bilmədiyiniz o qədər şeylər var ki...
- Məsələn, nəyi bilmirəm?
- O Hüseyn var e...
- Hansı Hüseyn?
- O uzun da... Bilirsiniz necə hiyləgərdir? İşi-peşəsi də ona-buna quyu qazmaqdır. Bax, sizə deyirəm, ehtiyatlı olun. Onu özünüzə yaxın buraxmayın. Mən sizi çox istədiyimdən deyirəm. Yoxsa nəyimə gərək. Hələ Əli...
- Hansı Əli?
- Şər Əli! Siz onu yaxşı tanımırsınız. Allah sizi onun şərindən saxlasın. Mən sizi çox istəyirəm. Yoxsa nəyimə gərək. Hələ o Zərbəli var e...
- Saxla!
- Nadürüst Zərbəlini deyirəm.
- Bəsdir!
- Yox e...
- Kəs səsini!
- Mən...
- Çıx bayıra!
- Mən sizi...
- Çıx,- dedim.- Bir də gözümə görünmə!
- Bura bax e... Adamlara yaxşılıq yoxdur ki...

HƏRƏ BİR ŞEY ÜÇÜN GƏLİR

Bu dünyaya deyəsən hərə bir şey üçün gəlir. Bəzilərinin iştahasını görəndə, adama elə gəlir ki, dünyaya məhz yemək üçün gəliblər. Həyatın ləzzətini yalnız yeyib-içməkdə görənlərin mədələri, maşallah, daşı da əridər. Nə deyirik ki?! Nuş olsun!

İşləməklə arası olmayanlar çoxdur. Beləələri özlərinü işə verməmək üçün min bəhanə uydururlar, hansı dona desən, girirlər, təki əllərini ağdan-qaraya vurmasınlar.

Bəzilərinin işi-peşəsi yatmaqdır. Hardan tapdıqlarını deyə bilmərəm, amma fil qulağında yatanlar da var. Onların yuxularına haram qatmaq olmaz.

Bir qrup adamlar da var ki... Bax, belələrinin yalnız çənələri işləyir. Yalan danışmaqda, şər atmaqda, böhtan söyləməkdə mahirdirlər. Birinin üzünün güldüyünü görəndə, elə bil başlarına daş düşür. Başqalarının işləri yaxşı gedəndə yuxuları qaçır. Paxıllıq, həsəd, kin onları içindən yesə də, əməllərindən, xasiyyətlərindən əl çəkmirlər.

XOŞBƏXT OLUN

Paulo Koelo deyib: "Bir uşağın bir yetkinə hər zaman öyrədə biləcəyi üç şey var. Səbəbsiz yerə xoşbəxt olmaq, hər zaman məşğul ola biləcək bir şey tapmaq və əldə etmək istədiyi şeyə var gücü ilə çalışmaq".

Gözəl sözlərdir! Və gözəl olduğu qədər də... Deyirəm bəlkə biz də uşaqlardan bu 3 şeyi öyrənək?! Səbəbsiz də (səbəb nə qədər istəsən tapmaq olar) xoşbəxt olmağa çalışaq. Ömür onsuz da çox qısadır.

MƏRDİMAZAR

- Köhnə yerindəsən?
- Bəli!
- Köhnə işində?
- Bəli!
- Gör neçə ildir müavinsən. Bəs nə vaxt müdir olacaqsan?
- Dağ boyda müdirim var ki?!
- Nə olsun?
- Necə nə olsun?
- Onu yıxmağa nə var ki?! Yıx, keç yerinə! İstəsən mən bu işdə sənə kömək edə bilərəm.

Doğru sözümdür.

Elə bildim başıma qaynar su tökdülər. Dedim:

- Əvvəla, mən namərdlik edə bilmərəm. İkincisi, müdirim pis adam deyil. Mənə də çox yaxşılıq edib.
- Görəsən, bu dünyada sənin kimi düşünən neçə adam var?
- Bilmirəm
- Bəs nəyi bilirsən, ay yazıq?
- Heç nə bilməsəm də, onu yaxşı bilirəm ki, sənin dediyin kimi çörək yemək kişilikdən deyil.

SONRA GEC OLUR

Bəzən nə istədiyimi heç özüm də bilmirəm. Yaxşı ki, bilmirəm. Kimdi istədiyimi mənə verən?!

Heç bilmirəm nədən başlayım. Amma çətini başlamaqdır. Bəziləri bir az da uzağa gedərək deyirlər ki, başlamaq işin yarısı deməkdir. Başlamaq dedim, yadıma baş düşdü. Və mən həmişə ağlımın başımda olmasına sevinsəm də, bir tanışım ağlının başında olmasından cox, başının ciynimdə olmasına sevinir. Deyir ki, çiyin üstə olmayan baş lap ağılla dolu olsa belə, nə əhəmiyyəti, üç-beş gündən sonra çürüyüb gedəcək.

Bəzən soruşurlar ki, uşaqlıqda kim olmaq istəmişəm. İnanmayacaqsınız, amma mən uşaqlıqda ən çox uşaq olmaq istəmişəm. Uşaqlığımı əlimdən almışdılar. Mən beş yaşımda on beş, on beş yaşımda qırx yaşlı adam kimi hərəkət etməyə "borclu" idim. Yalnız məktəbə və kitabxanaya gedən yolum açıq olub. Çünki ancaq əla qiymətlərlə oxumalı, "Bəli!"-"Xeyir"lə danışmalı, yalnız məktəbdə keçirilən tədbirlərdə iştirak etməliydim. Küçədə oynamağa, uşaq hərəkətləri etməyə-qarğı "atı" çapmağa, at arabasının dalınca qaçmağa, kağız topla futbol oynamağa... ixtiyarım olmayıb. Dərsdənkənar vaxtlarda məni gözlərindən bir addım uzağa buraxmayıblar. Uşaq ola-ola hamı mənimlə böyük kimi davranıb. Hətta böyüyəndə də uşaq hərəkətləri edəndə tənə ilə rastlaşırdım: "Özünü uşaq kimi aparma!" Elə bu sözləri yazanda da fikirləşirəm: "Görəsən uşaqlıq eləmirəm ki?"

Üstündən yarım əsr keçəndən sonra bu mövzuya niyə toxundum? Yazdım ki, uşaqlarınızın uşaqlığını əllərindən almayasınız. Sonra gec olur.

ARZUYA BAX ...

Bir həkim tanışım var. Bilmirəm həkimlərin ən böyük arzusu nə ola bilər, amma bu tanışımın bəlkə ən böyük arzusu budur ki, mənim də nə vaxtsa ona işim düşsün. Yəni əməlli-başlı azarlayım. Elə xəstələnim ki, cərrahiyyə əməliyyatsız keçinmək mümkün olmasın. O da iti cərrah bıçağını (insafən pis cərrah deyil) götürüb, ağrıyan yerimin orasından-burasından kəsib, dilinə calasın ki, dili yanımda uzun olsun... Allah, sən saxla!

Bir uşaqlıq tanışım var. Özünə görə adı-sanı, vəzifəsi, başqalarının yanında keçərli sözü... On illərdir həsrətindədir ki, nə vaxtsa qapısını döyüb xahiş-minnət edəm: "Bəlkə uşaqlarımdan birini yaxşı bir işə düzəldəsən". Gözləyə-gözləyə qalıb.

Bir imkanlı qohumum var. Allah başından töksün. Toyda-yasda mənə elə baxır, elə baxır... sanki yaxınlaşıb yalvarmalıyam ki, əlim bir az aşağıdır. Bəlkə əlimi yuxarı qaldırasan.

Bir dostum var. Yüksək vəzifəyə keçməmişdən əvvəl məni ən azı ağıllı adam sayırdı. Çox şeyi mənimlə məsləhətləşirdi. Vəzifəyə keçəndən sonra hamıya, o cümlədən mənə də ağıl verir. Nə deyirəm ki! Vəzifə adamı ağıl dəryasına döndərirsə, Allah ağlını başından çıxarmasın.

Ədliyyə orqanlarında, daha doğrusu həbsxanada çalışan bir tanışımla rastlaşanda isə: "Mənə görə nə qulluq? Canla-başla hazıram",-deyir.

Mən də:

- Hələ həbsxanalıq bir iş görməmişən,-deyə cavab verirəm...

Yaşım əllini keçib. İndi doğulduğum kəndə də qorxa-qorxa gedirəm. Qorxuram ki, mürdəşir İbrahim kişi ilə rastlaşım və o da: "Mənə görə nə qulluq? Qulluğunda hazıram",- deyə təkid etsin...

RUHDAN DÜŞMƏYƏ DƏYMƏZ

Bir dostum var, yaxşı adamdır. Yaxşı adam olmasına baxmayaraq, həmişə pisliklə üzləşir və təbii ki, bundan üzülür.

Məndən məsləhət istəyəndə, ona Fridrix Nitşenin bir deyimini xatırladıram: "Yaxşı insan olduğun üçün insanların səninlə yaxşı davranmasını gözləmək, vegeterian olana öküzün hücum etməyəcəyini düşünmək qədər səfeh fikirdir."

Atalarımızın da, hikmətinə görə bu kəlamdan geri qalmayan bir ifadəsi var: "İgidin başı qalda gərək". Sözümün canı odur ki, yaxşı adamlar heç yerdə naqis adamların pisliklərindən sığortalanmamışdır və pis adamlar da yalnız və yalnız yaxşı adamlara pislik edirlər. Yəqin it-itin ayağını basmadığı üçün belədir. Ruhdan düşməyə dəyməz. Bir də, pislər pisliklərindən əl çəkmirlərsə, yaxşılar yaxşılıq etməkdən niyə əl çəkməlidirlər?

UTANCAQ

- Qonşu, vallah, deməyə də utanıram. Yaxın aylarda oğluma toy etmək istəyirəm. Deyirəm bəlkə üç il əvvəl götürdüyün borcu qaytarasan?!
- Mümkünsə, bir az vaxt ver.
- Keçən il də vaxt istədin. Nə qədər vaxt istəyərlər?
- Nə deyim, ay qonşu, təzədən pul istəməyə sadəcə üzüm gəlmir.

ADAM OLMAYACAQSAN

İmkanlı ailədən olan və çox zəif oxuyan şagirdlərdən biri danlananda müəllimlərə acıq verirmiş kimi deyirdi:

- Görərsiniz, mən onsuz da böyük adam olacağam...

Məktəbi birtəhər bitirdi və buna ən çox müəllimlər sevindilər.

Üstündən illər keçəndən sonra rastlaşdıq.

Salam-kalamdan sonra şəstlə harda işlədiyini söylədi və ona inamsızlığımıza görə hətta qınadı da:

- Sizə deyirdim axı, böyük adam olacağam.

Vəzifəsini biləndən sonra düzü heyrətlənsəm də, hər halda onu cavabsız buraxmaq istəmədim:

- Böyük olmağına olmusan. Amma adam olmağına hələ çox var.

ÖZ HAVANA OYNA

Həkim xəstəyə deyir:

- Tibb elmi çoxdan, lap çoxdan sübut edib ki, rəqs qan dövranını, maddələr mübadiləsini yaxşılaşdırır, qan təzyiqini aşağı salır, ürək-damar, nəfəs yolları sisteminin işinə müsbət təsir edir. Hətta immuniteti qaldırır...

Xəstə:

- Doğrudan? Deyirəm axı, çox yerdə "Oyna görüm, oyna"dır. Demək, xeyri varmış. Görəsən mən hansı havaya oynasam, yaxşı olar?

Həkim bir qədər fikirləşib deyir:

- Konkret deyə bilmərəm. Amma hər halda, çalış öz havan olsun. Başqasının havasına oynamağın düşər-düşməzi olur.

İÇƏNDƏN SONRA "ŞİR"Ə DÖNƏNLƏR

İçki məclislərindən heç xoşum gəlmir. Ona görə yox ki, içən deyiləm. Ona görə ki...

Adətən, iki və ya üçüncü badədən sonra yalanlar, özünütəriflər, şit söhbətlər başlayır və nə başlayır. Dediklərinə inansaq, belə məlum olar ki, bunlardan mərd, iğid, xeyirxah... yoxdur və nə qədər ki, sağdırlar (Ömürləri uzun olsun!), deməli hələ bir müddət olmayacaq da. Az qalır deyəm ki, Keçəl Həmzəyə xas əməllərinizdən Koroğlu kimi niyə danışırsınız?! Məni məclisə dəvət edənin xətrinə birtəhər dözürəm. O məclisdən sonra uzun müddət qulağım səsdə olur ki, bəlkə dedikləri kişilikdən bir əsər-əlamət eşidəm. Eşitmirəm. Növbəti məclisdə də ikinci və ya üçüncü badədən sonra şirə-pələngə "dönənlər"in gopları başlayır... Xoşbəxtlikdən cib telefonum zəng çalır. Vacib işim olduğunu bəhanə edib məclisi tərk edirəm. Onların isə sağlıqları və deməli gopları davam edir.

GÖZÜNDƏ "YAŞ" GÖRMƏYİM

Gün hardan doğdu, necə doğdu, bilmədim. Bildiyim odur ki, bir vaxtlar iki uzunqulağın arpasını bölməyi etibar etmədiyim bir adamı yatıb yuxusunda da görə bilməyəcəyi bir vəzifəyə qoydular. Başqa sözlə, tabeliyindəkilərə gün ağlamağı ona etibar etdilər. Gözünə döndüyüm də "El üçün ağlayan gözsüz qalar" məsəlini birinci gündən qulaqlarında necə sırğa etdisə, başladı ancaq özünə gün ağlamağa.

Nə deyim?! Qarğışla aram yoxdur. Ona görə alqışlamağa məcburam: "Gözlərində "yaş " görməyim!"

QORXU

Hər birimiz nədənsə qorxuruq. Bu, tamamilə normal haldır. Amma bəziləri elə şeylərdən qorxur ki, onlara görə qorxmağa dəyməz. Həm də hər şeyin bir çarəsi var axı... İşə gecikməkdən qorxursan? Evdən bir az tez çıx. İşin öhdəsindən gələ bilmirsən? Bacardığın işdən yapış. Qonşun pisdir? Yox, köç demirəm. Özün yaxşı qonşu olmağa çalışmısan? Dostların sənə arxa çevirir? Yaxşı dostları heç kim itirmək istəməz.

Nədən qorxmaq lazımdır? Hamımız bilirik ki, ölüm haqdır. Yox, ölümdən də qorxmaq lazım deyil. Nə vaxtsa çəkiləcəyin sorğu-sualdan qorx. O sorğu-sualın qorxusunu yaşamaq istəmirsənsə, bu dünyada elə yaşa, ömrünə xeyirxahlıqdan, nəciblikdən, gözəl əməllərdən elə naxışlar sal ki, qorxu hissi özü sənə yaxın gəlməyə qorxsun.

ZƏMANƏ ADAMI

Tanışlardan ən çox eşitdiyim iradlardan biri də budur ki, mən zəmanə adamı deyiləm və onların fikrincə, heç zaman olmamışam və olmayacağam. Dediklərindən belə məlum olur ki, mənim bütün problemlərimin səbəbi zəmanə adamı olmamağımda və ola bilməyəcəyimdədir.

Düzü, zəmanə adamı olanlara baxıram və hər baxanda da şükür edirəm ki, nə yaxşı, zəmanə adamı deyiləm. Zəmanə adamı olmaq adamlığı unutmaqdırsa, mənə sadəcə, adam olmaq kifayətdir. Zəmanə adamı olmasam da.

KÜSƏNLƏRİM ÇOXALIR

Tanıyanlar bilirlər. Həsəddən, paxıllıqdan, kindən... uzaq adamam. Heç kəsin heç nəyində gözüm olmasa da gündən-günə məndən küsənlərin sayı çoxalır. Birinin dediyini təsdiqləmirəm, küsür. Birinə "Bacardığın işdən yapış" söyləyirəm, qaşqabağı yer süpürür. "Səndən jurnalist çıxmaz, özünə başqa peşə tap" deyə məsləhət etdiyim adamların çoxu mənim acığıma qəzet açır, yazdıqlarını şeir hesab etmədiyim "şairlər" isə qalın-qalın kitablar buraxırlar. Birinə özgə atına mindiyini söylədim, gedib "CİP" aldı. Başqasının arxasınca danışana "Adam kişi olar!" dedim, küsüb getdi... nakişiliyini davam etdirməyə... Uzun sözün qısası, küsənlərim çoxalır. Belə getsə, məndən küsməyən elə bircə mən özüm qalacağam. Dilim-dilim olasan, dilim!

ALİMLƏR BUZ ALTINDA TƏHLÜKƏLİ VULKANLAR TAPIBLAR

Alimlər Antarktidada potensial təhlükə yarada biləcək 90-dan çox vulkan tapıblar.

Edinburq Universitetinin əməkdaşı Robert Binqam bildirib ki, Antarktidada fəaliyyət göstərən 91 vulkanın püskürməsindən sonra Yerdə dünya tufanı baş verə bilər.

runews24 saytı xəbər verir ki, geoloji tədqiqatların materialları artıq tematik nəşrdə dərc olunub. Robert Binqamın fikrincə, hətta Antarktidada vulkanlardan biri aktivlik nümayiş etdirərsə, onda bütün buzlaq örtüyü qitənin sabitliyini poza bilər.

Əvvəllər Antarktidada 47 vulkanın olduğu bildirilirdi. Amma son araşdırmalara əsasən, qitədə 100 metrdən 3850 metrədək hündürlüyə püskürə bilən 91 obyekt olduğu təsdiqlənib. Vulkanlar indi aktivlik göstərmir və dörd kilometr dərinlikdə buz altında yerləşir.

ABU-DABİ SAHİLLƏRİNDƏ HİND DONQAR DELFİNLƏRİ AŞKAR EDİLİB

Abu-Dabinin isti suları hind donqar delfinlərinin sığınacağına çevrilib. Abu-Dabi Ətraf Mühitin Mühafizəsi Agentliyinin (EAD) "Bottlenose" Delfin Tədqiqatları İnstitutu (BDRI) ilə birgə əməkdaşlığı nəticəsində Abu-Dabi sahillərində hind donqar delfinlərinin dünyada ən böyük populyasiyası aşkar edilib. Əmirlikdə çıxan "The National" nəşrinin yazdığına görə, birgə tədqiqatların nəticələri "Journal of the Marine Biological Association" jurnalında dərc edilib.

Tədqiqatçıların ilkin qənaətinə görə, Abu-Dabidə sularında hind donqar delfininin təqribən 701 nümayəndəsi qeydə alınıb.

Sırf Hind okeanının sahilyanı sularında təsadüf olunan bu delfin növü xüsusi donqarı, uzunsov bel üzgəci və kiçik döş üzgəcləri ilə fərqlənir. Onlar təqribən 2,5 metrə qədər böyüyür, çəkiləri isə 100-139 kiloqram civarında olur.

EAD-ın dəniz biomüxtəlifliyi sektorunun icraçı direktoru Şaihə Al-Dəhəri bildirib ki, tədqiqatçıların bu kəşfi yaxşı xəbərdir və Abu-Dabinin dəniz biomüxtəlifliyinin dəyərini bütün dünyaya nümayiş etdirir.

Nəşr yazır ki, delfinlərin bu növü yetərincə öyrənilməyib və hazırda tədqiqatçılar qrupu layihəni maliyyələşdirmək üçün fərdi və korporativ sponsorlar cəlb edirlər.

Asya Hacızadə

SUDA BATMAYAN AVTOBUS

"Cool Amphibious Manufacturers International" ABŞ şirkəti artıq uzun illərdir ki, suda üzən və şose ilə şütüyən avtobus-amfibiyanın layihəsi ilə məşğuldur.

"novate.ru" saytı bildirir ki, onlardan biri də təcrübədən keçmiş və sərnişinlərin etibarını qazanmış "Hydra-Terra" avtobus-amfibiyadır. Layihə müəllifləri əmindirlər ki, orijinal konstruksiyaya malik universal nəqliyyat vasitəsi elə materialdan düzəldilib ki, onu batırmaq mümkün deyil.

"Hydra-Terra"nın salonunda 50-dək sərnişin daşına bilər. Maşının qiyməti 379 min dollardır.

BU İL DÜNYA TURİZM GÜNÜ "DAVAMLI TURİZM İNKİŞAF ÜÇÜN ALƏTDİR" DEVİZİ ALTINDA KEÇİRİLƏCƏK

BMT-nin Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifai 27 sentyabr - Dünya Turizm Günü münasibətilə ictimaiyyətə müraciət edib.

Taleb Rifainin müraciətində turizmin kimya və yanacaq sənayesindən sonra ixracın həcminə görə üçüncü ən böyük sənaye sahəsi olduğu bildirilir. Qeyd edilir ki, turizm bütün insanlarda ümid, münasibətlərdə qarşılıqlı anlaşma yaradır. Təkcə ötən il 1,235 milyon səyahətçi beynəlxalq sərhədləri keçib. 2030-cu ilədək bu rəqəm 1,8 milyard olacaq. Bu il qeyd ediləcək Dünya Turizm Gününün əsas məsələsi 1,8 milyard adamın turist kimi səyahətindən yaranacaq imkanların dayanıqlı inkişafın iqtisadi, sosial, ekoloji, mədəni və sülh istiqamətlərinə necə töhfə verə biləcəyini nəzərdən keçirməkdir. BMT Baş Məclisi 2017-ci ili "Beynəlxalq Davamlı Turizm İli" elan edib. Bu bizə bəşəriyyət üçün daha yaxşı gələcəyə nail olmaq məqsədilə turizmin imkanlarından istifadə edilməsində qüvvələrimizi birləşdirməyə şərait yaradır. Vurğulanır ki, hər kəs səyahət edəcəyi ölkədə təbiətə, mədəniyyətə, yerli əhaliyə hörmətlə yanaşmağı unutmamalıdır. Müraciətdə deyilir: "Siz arzu edilən cəmiyyətə nail olunmasında dünyanı dəyişdirməyə qadirsiniz. Siz daha yaxşı gələcəyin səfiri ola bilərsiniz. Səyahət edin, zövq alın və hörmət edin".

Müraciətin tam mətnini Dünya Turizm Təşkilatının saytında oxumaq mümkündür.

Xatırladaq ki, bu il Dünya Turizm Günü "Davamlı turizm inkişaf üçün alətdir" devizi altında keçiriləcək.

TELEFONDAN İSTİFADƏ EDƏN PİYADALAR CƏRİMƏLƏNƏCƏKLƏR

ABŞ-ın Havay ştatının paytaxtı Honolulu şəhərində "Telefondan istifadə edən piyadaya pul cəriməsi" qanun layihəsi qəbul edilib. Bu, son zamanlar ağıllı telefonlara olan asılılığın aradan qaldırılması istiqamətində atılan addımlardan biridir.

Bununla da honolulular dünyada bir ilkə imza atıblar. Belə ki, Honoluluda yolu keçərkən telefondan istifadə edən piyadalar cərimələnəcəklər. Qəbul olunan yeni qanun layihəsinə görə, həmin piyadalara 75-99 ABŞ dolları məbləğində pul cəriməsi tətbiq ediləcək.

ABŞ Milli Təhlükəsizlik Şurasının yaydığı bəyanata əsasən, 2000-ci və 2011-ci illərdə 11 min 100-dən artıq adam yolu keçərkən yaralanıb. Yaralananların böyük bir qismi yolu telefondan istifadə edərək keçənlərdir.

Xatırladaq ki, Bakı ilə Honolulu uzun illərdən bəri qardaşlaşmış şəhərlərdir.

SU ÜZƏRİNDƏ EV

Böyük Britaniyanın "Schopfer Associates" arxitektura şirkəti su üzərində gözəl bir evin layihəsini təqdim edib.

"novate.ru" saytı bildirir ki, "Sting Ray" adlanan evin platformasında 2 avtomobil üçün qaraj, cakuzi və hovuz var. Evin 2 mərtəbəsinin bir mərtəbəsində qonaq və yemək otaqları, digərində isə 3 yataq, 3 vanna otağı və qarderob yerləşir.

Layihəçilər əmin edirlər ki, onun tikintisində ətraf mühitə az təsiri olan "yaşıl texnologiya"dan istifadə ediləcək.

İLK ÜZƏN GÜNƏŞ ELEKTRİK STANSİYASI İŞƏ SALINIB

Çinin Anxoy vilayətinin Xuaynan şəhəri yaxınlığında dünyada ən nəhəng üzən günəş elektrik stansiyası işə salınıb.

RİA Novosti xəbər agentliyi bildirir ki, stansiya 1200 günəş paneli ilə təchiz olunub. Ümumilikdə isə 86 hektar su səthində yerləşib.

Elektrik stansiyası 40 meqavat enerji istehsal edə bilir və bu, 15 min evin elektrik enerjisi ilə təmin olunması deməkdir.

AĞCAQANADLARDAN NECƏ QORUNMALI?

İsti yay günlərində ən çox narahatlıq yaradan səbəblərdən biri də ağcaqanadlardır. Onlar təkcə gecələr sancaraq yatmağa imkan vermədikləri üçün qorxulu deyil. Əsas təhlükə onların yaydığı infeksiyalardır.

Ağcaqanad sancmasına qarşı müxtəlif üsullardan istifadə edilir, lakin bəzən həmin vasitələr sağlamlıq üçün təhlükəli ola bilər. Xüsusilə aromatik spirallar yanma nəticəsində kanserogen maddə olan formaldehidə çevrildiyinə görə həmin spirallardan qapalı yerlərdə uzun müddət istifadə etmək məsləhət deyil. Elektrik qızdırıcılarında istifadə edilən ağcaqanad əleyhinə olan həblərdə toksiki maddələr bir qədər azdır, lakin onların tərkibində olan piratrid maddəsi allergiya, rinit, zökəm, astma, baş ağrıları və qulaqlarda küy yaradır. Ağcaqanad əleyhinə olan bilərziklər zərərsiz olsa da, onun taxılması o qədər də səmərə vermir.

Lakin bunlardan başqa da ağcaqanad əleyhinə plastik tor, aeroziol, fumiqator, spiral, repellent və digər ultrabənövşəyi vasitələr var. "Hand-made" fumiqatorun içərisindəki maye qurtaranda onu 100 faizli evkalipt ekstraktı ilə doldurub istifadə edilməsi də sınaqdan çıxmış vasitələrdən biridir.

Təzə yığılmış reyhanın ətri, sidr yağı ağcaqanadları qovur. Evin pəncərəsi qarşısında gəndalaş kolları və pomidor əkilməsi də ağcaqanadların qarşısını alır.

Ağcaqanad sancdığı yer şişir və qaşınma verir. Ona qarşı da bir sıra üsullardan istifadə edilir. Yarım çay qaşığı çay sodası və 1 stəkan sudan məhlul hazırlanaraq həmin nahiyələr silinir. Onun əvəzedici kimi naşatır spirti və zəif kalium-permanqanat məhlulundan da istifadə etmək olar.

Yarım stəkan xırdalanmış dazıotu otu və çiçəkləri üzərinə hər hansı bitki yağı əlavə edilərək 3 həftə saxlanılır, süzüləndən sonra sərin yerə qoyularaq istifadə edilir.

Sancma və dişləmə olan nahiyələrə təzə maya qoyularaq hər saatdan bir dəyişdirilir. Onu əzilmiş sarımsaqla da növbələşdirmək olar.

Bal və zeytun yağı qarışığı, Vyetnam balzamı da sancmaya qarşı güclü vasitələrdən biridir. Bir qədər əzilib yumşaldılmış bağayarpağı, cəfəri və nanə qaşıntını götürür.

YARIZARAFAT, YARIGERÇƏK

Məsafə bizi çox bəlalardan qurtarır. Hər şeydə müəyyən bir məsafə saxlayın.

Həyat məni cəhənnəm əzabına alışdırmaq istəyir. Görəsən niyə? Cəhənnəmə düşəcəyim üçünmü?

Sonu yaxşı bitməyəcək hər şeydən əvvəlcədən uzaq durun.

O yerdə ki, düz keçmir, o yerdə bütün eybəcərliklər keçir.

Biz, bizi sevənlərə niyə həmişə təpik atırıq?

Mən hər dəfə çəkəndən sonra siqareti atıram.

Nə qədər ki, səmimiyəm, əmin ol ki, sənin tərəfində də deyiləm.

Ayaqlarımı yerdən üzmək istəyənlər əvvəlcə əllərimi göydən üzməyi bacarmalıdırlar.

Düşməni əhv et, amma ona yazığın gəlməsin.

Heç nəyə ağlını oğurlamağa imkan vermə. Xüsusən tamahına.

Tale gülmək istəyəni ağladır. Ağlamaq istəyənin isə dəsmalını da əlindən alır.

Heç vaxt tək olmamışam. Allahım həmişə mənimlə olub.

Yerimək istəyəndə o qədər badalaq gördüm ki, qanadlarımı qıracaqlar deyə heç vaxt uçmaq xəyalına düşmədim.

Canlıların arasında insanlardan etibarsızı yoxdur.

Sahil görünməyəndə də dənizçinin həmişə sahili görmək inamı olur.

Mən o qədər böyük adamlar tanıyırdım ki, vəzifə onları kiçiltdi.

Yalan dəniz kimidir. Nə qədər dərinə getsən, boğulmaq ehtimalın daha da çoxalır.

Külək də yaltaqları xoşlayır. Külək əsən səmtə yıxılanlara heç nə olmur.

Əvvəlcə öz dəyərini bil.

Heç "insafmıdır", bir əvəzinə iki və daha çox üzü olana simasız deyəsən?

Heç kəs ölməyə hazırlaşmır. Amma əksəriyyətinin cəhənnəmdə yeri hazırdır.

Bəzən vəzifə təlimatları ilə məndən üstün olduqlarını sübut etməyə çalışırlar.

Sirr qalmasını istəyən adam sirrini başqasına deməz.

Səhv yolla gedən sonra başını da itirər.

Mən üzümü ağartmaq istəyirdim. Saçlarım qabağa düşdü.

Pis işlər görənlər özlərini behiştə layiq görməyənlərdir.

Göz görmək üçündür. Gördüyünü dərk etmək üçün isə ağıl gərəkdir.

İki ayaq, iki əl, iki göz... Tanrı sənə daha nə verməliydi ki?!

Tanrı hardadır? İnanırsınızsa - ürəyinizdə! İnanmırsınızsa, ürəyinizdən başqa hər yerdə.

Ömrümüzün qırxıncı qapısını əcəl açır.

Səndə elə gözəl şeylər ola bilər ki... Gör nədir o?

Hər şeyi baha satanlar vicdanlarını niyə ucuz satırlar?

Ən uca qapı Tanrınındır. O qapıdan da içəri əyilə-əyilə keçmək lazımdır.

Biz təbiətlə təbiətin öz dilində deyil, əl-qolla danışandan təbiət də borclu qalmaq istəmir.

Həttə bir evdə yaşayanlar da bəzən bir-birilərindən o qədər uzaq olurlar ki...

Yaltaqların çox olduğu iş yeri yükü çox olan gəmiyə bənzər. Hər an batmaq ehtimalı var.

Həqiqətin üzünə qapını özün bağlayırsansa, həqiqət niyə pəncərədən girməyə cəhd etməlidir?

Məhz cavabını bildiyim üçün cavablandırmadığım xeyli sual var.

Cəhənnəmdə çətin olacaq. Cənnətdə isə həmişə olduğu kimi, yəqin yerimi yenə başqası tutacaq deyə, heç ölmək istəmirəm.

Bütün həyatım özümlə savaşda keçdi:o olmaz, bu olmaz. Olmazlarım o qədər çox oldu ki...

Mən Qarabağda həm də ölməmək üçün savaşdım. Ölmək üçün savaşmağa dəyməz.

Hamının düzdən guya xoşu gəlir, amma çoxu düzü yaxın buraxmır. Hamının guya yaltaqlardan zəndeyi-zəhləsi gedir, ətrafları ən azı yaltaqlarla doludur.

Rasif TAHİROV

AZƏRBAYCANIN İDMAN TARİXİNDƏ İLKƏ İMZA ATILIB

Avqustun 7-də İngiltərənin Valsall şəhərində keçirilən cüdo üzrə Avropa çempionatında Azərbaycanın idman tarixində ilkə imza atılıb.

Azərbaycan Milli Paralimpiya Komitəsindən bildiriblər ki, ölkəmizin kişilər və qadınlardan ibarət paracüdo üzrə yığmaları çempionatda bütün rəqiblərinə qalib gələrək komanda yarışlarında qızıl medallara sahib olublar.

Xatırladaq ki, fərdi yarışlarda idmançılarımız 4 qızıl, 1 gümüş, 2 bürünc medal qazanıblar. Azərbaycan cüdoçularından İlham Zəkiyev, Rövşən Səfərov, Sevda Vəliyeva və Xanım Hüseynova qızıl, Bayram Mustafayev gümüş, Ramil Qasımov və Hüseyn Rəhimli isə bürünc medal əldə edib.

KARATEÇİLƏRİMİZ BEYNƏLXALQ DOSTLUQ VƏ HƏMRƏYLİK TURNİRİNİ 13 MEDALLA BAŞA VURUBLAR

Karateçilərimiz İranının Urmiya şəhərində keçirilən kişilər arasında 13-cü beynəlxalq dostluq və həmrəylik turnirini 4 qızıl, 5 gümüş, 4 bürünc olmaqla 13 medalla başa vurublar.

Azərbaycan Milli Karate Federasiyasından bildirilib ki, 14-15 yaşlı yeniyetmələrdən Tale Yaqubov (-57 kq) qızıl medala, Hüseyn Hüseynzadə, Sultan Hüseynov, Hüseyn Məmmədli bürünc mükafata sahib olublar. 16-17 yaşlı gənclərdə Hümmət Baxşəliyev (-61 kq) birinci yeri, Müseyib Məmmədov (-55 kq) ikinci yeri, Kənan Mir Pənah (kata) və Murad Balakişiyev (-76 kq) isə üçüncü yeri tutub.

Böyüklərin yarışında Roman Heydərli (kata) çempion olub. Rafiz Həsənov (-67 kq) isə fəxri kürsünün ikinci pilləsinə qalxıb. Komanda çıxışlarında Şahin Atamov, Əli Cəfərov, Rafiz Həsənov, Novruz Əliyev, Pənah Abdullayev, Turqut Həsənov və Məhəmməd İsmayılovdan ibarət heyət yalnız

İranın birinci komandasına məğlub olaraq gümüş medallara sahib olublar. Emil Güləhmədov, Murad Hacızadə, Orxan Əhədov, Samir İbrahimov, Elcan Məmmədrzayev, Ruslan Əhmədov və Hüseyn Əliyevdən ibarət ikinci komandamız isə Türkiyə komandası ilə birgə bürünc medal əldə edib.

Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Başirovun rəhbərliyi ilə Urmiyada ənənəvi yarışda iştirak edən heyətdə milli komandaların məşqçiləri Şahin Xudaverdiyev, Anar Allahverdiyev, eləcə də beynəlxalq hakimlər Cahangir Babayev və Vüqar Kərimov da yer alıb.

Urmiya şəhərində kişilər arasında 13-cü beynəlxalq dostluq və həmrəylik turnirində 13 ölkədən 312 idmançı mübarizə aparıb.

SAMBOÇUMUZ FESTİVALDA UĞURLA ÇIXIŞ EDİB

Rusiyanın Ulyanovsk vilayətində MDB ölkələri milli idman növlərinin və oyunlarının birinci festivalı keçirilib.

Mindən çox idmançının yarışdığı mötəbər turnirin proqramına Olimpiya və qeyri-Olimpiya idman növləri daxil edilib. İdmançılar festivalda 70 dəst medal uğrunda mübarizə aparıblar.

"Neftçi İdman Klubu"nun samboçusu Cavidan Qarayev (62 kq) festivalda uğura imza atıb. Səhliman Ağayevin yetirməsi bütün görüşlərdən qalib ayrılıb və mötəbər yarışın qızıl medalına sahib olub.

YEMƏKDƏN SONRA NİYƏ ÖZÜMÜZÜ YORĞUN HİSS EDİRİK?

İşləyənlər üçün günün ən çətin saatları günorta yeməyindən sonradır. Böyük bir iştaha ilə yeyilən günorta yeməyindən sonra yuxulamağın qarşısını almaq olduqca çətindir. Bu vəziyyəti mütəmadi olaraq yaşayanların qidalanmalarında bəzi düzəlişlər etmələri vacibdir. Yeməkdən halsızlaşmaların səbəbləri nələrdir?

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının saytı bu halın yaranmasının əsas səbəblərindən bir neçəsini misal çəkir. Bunlar orqanizmin həzm üçün çox enerjiyə ehtiyac olması, enerji ehtiyacını ödəmək üçün digər sistemlərin zəifləməsi, həzm sisteminə qan axımının artması, beyni qidalandıran qan miqdarının azalması, yeyilən karbohidrat miqdarına uyğun olaraq insulin sintezinin artması kimi səbəblərdir. İnsulinin çox miqdarda sintezi ani qan şəkərinin düşməsinə səbəb olur, eyni zamanda serotoninin də ifrazını artıraraq yuxulama halı yaradır.

Bir sıra yollarla bu halın qarşısını almaq mümkündür. Bunun üçün çox ac vəziyyətdə süfrəyə oturmamağa diqqət yetirmək lazımdır. Bundan əlavə yemək aralarında aclıq hiss etdikdə meyvə və ya çərəz kimi yüngül qidalar qəbul edilməlidir. Yeməyin çox və uzun



müddət çeynənməsi, karbohidrat və yağ miqdarını azaldılması, yeməyin yanında salatın olması, qızartmalardan mümkün qədər az istifadə edilməsinə diqqət yetirmək lazımdır.

VÜQAR RƏSULOV TROYA BEYNƏLXALQ ŞAHMAT TURNİRİNİN FƏXRİ KÜRSÜSÜNƏ YÜKSƏLİB

Gəncə Şahmat Məktəbinin yetirməsi olan qrossmeyster Vüqar Rəsulov sayca 25-ci dəfə keçirilən Troya beynəlxalq şahmat turnirinin fəxri kürsüsünün ən yüksək pilləsinə qalxıb.

Türkiyənin Çanaqqala şəhərində avqustun 7-dən 12-dək davam edən 110 iştirakçının qatıldığı blits turnirdə Azərbaycan təmsilçisi inamlı oyun nümayiş etdirib. Vüqar Rəsulov 9 oyundan maksimum xal toplayaraq çempion adını qazanıb.

İkinci və üçüncü yerləri hərəyə 7,5 xal toplayan Gürcüstan şahmatçısı Davit Benidze və Rusiya təmsilçisi Boris Savçenko bölüşüblər.

Troya beynəlxalq şahmat turniri çərçivəsində təşkil edilmiş blits turnir İsveçrə sistemi üzrə 9 turdan ibarət olaraq keçirilib.

TƏNHALIQ İNSAN ÜÇÜN ƏN BÖYÜK TƏHLÜKƏDİR

Tənhalıq və tərkidünyalıq piylənmədən də böyük təhlükədir. ABŞ-ın Brikheym Yanq Universitetinin psixoloqları belə bir qənaətə gəliblər. Onların fikrincə, həmin amillərin əhaliyə təsiri ilbəil artır və milli problemə çevrilə bilər. Alimlər bu barədə Amerika Psixoloji Assosiasiyasının 125-ci illik konvensiyasında məlumat veriblər.

Tədqiqat barədə press-reliz EurekAlert saytında yerləşdirilib.

Mütəxəssislərin söylədiklərinə görə, başqaları ilə qarşılıqlı münasibət hər kəsin sağlam yaşaması və psixoloji rahatlığı üçün əsas tələbatlardandır. Amerika Pensiyaçılar Assosiasiyası qeyri-hökumət təşkilatının tənhalığın öyrənilməsi ilə əlaqədar apardığı tədqiqatın nəticəsinə görə, yaşı 45-i ötmüş 42,6 milyon amerikalı xroniki tənhalıqdan əziyyət çəkir. 2014-cü il siyahıyaalmasına görə, ölkə əhalisinin dörddəbirindən çoxu tənha yaşayır, yarıdan çoxu isə nikah bağlamayıb.

Alimlər hər biri onlarla tədqiqatın nəticələrini özündə ehtiva edən iki metaanaliz aparıblar. Birinciyə ümumilikdə 300 mindən çox könüllünün iştirak etdiyi 148 elmi araşdırma daxil edilib. Məlum olub ki, möhkəm sosial əlaqələr erkən ölüm riskini 50 faiz azaldır. İkinci metaanalizdə isə Şimali Amerika, Avropa, Asiya və Avstraliyadan 3,4 milyon nəfərin iştirak etdiyi 70 tədqiqatın nəticələri öyrənilib. Alimlərin qənaətinə əsasən tərkidünyalıq və ya tənhalıq erkən ölüm riskini, piylənmə də daxil olmaqla, digər amillərdən daha çox artırır.

Mütəxəssislər hesab edirlər ki, səhiyyə sistemi sosial əlaqələrin əhalinin sağlamlığına təsirini nəzərə almalıdır. Tənhalığa daha həssas olan pensiyaçıların başqaları ilə ünsiyyətdə ola biləcəyi istirahət evlərinin və parkların tikintisi də zəruridir.

YARIŞLARIN QALİBİ VƏ İKİNCİ FİNALÇI DÜNYA ÇEMPİONU ADI UĞRUNDA İDDİAÇILARIN TURNİRİNƏ VƏSİQƏ QAZANACAQLAR

Sentyabrın 2-dən 27-dək Tbilisidə şahmat üzrə Dünya Kuboku yarışları keçiriləcək. Yarışların qalibi və ikinci finalçı 2018-ci ildə dünya çempionu adı uğrunda iddiaçıların turnirinə vəsiqə qazanacaqlar.

FIDE builki Dünya Kuboku yarışlarının 128 iştirakçısının siyahısını açıqlayıb. Azərbaycanı qrossmeysterlər Şəhriyar Məmmədyarov və Teymur Rəcəbov təmsil edirlər.

Turnirin mükafat fondu 600 min dollar təşkil edir. Bunun 120 min dolları qalib şahmatçı üçün nəzərdə tutulub.

Şəhriyar Məmmədyarov ilk matçda Quançu Liu (Çin), Teymur Rəcəbov isə Xelgi Dam Ziska (Farer adaları) ilə qarşılaşacaqlar. Hər iki şahmatçımız ağ fiqurlarla oynayacaq.

Dünya Kuboku nokaut-sistem üzrə keçiriləcək: iki klassik partiyada hesab bərabər olsa, rəqibləri tay-breq: rapid, blits, lazım gəldikdə "armageddon" gözləyir. Finalda dörd klassik partiya oynanılacaq.

Turnirdə ilk dəfə dünya şahmat tacının sahibi Maqnus Karlsen iştirak edəcək.

Şəhriyar turnirə vəsiqəni yüksək reytinqi sayəsində qazanıb, Teymur isə Təşkilat Komitəsinin nominantlarından biri olub.

VALİDEYNLƏRİN NƏZƏRİNƏ: BU İL MƏKTƏBLİ FORMASINDA QİYMƏT ARTIMI OLMAYACAQ

Bu il məktəbli formalarının qiymətlərində heç bir dəyişiklik edilməyib. Aşağı siniflər üçün bir dəstin qiyməti 40 manat, yuxarı sinif şagirdləri üçün isə 46 manat təşkil edir. Məktəbli formaları aşağı və yuxarı siniflər üçün ümumilikdə dörd modeldə tikilir.

Bu barədə AZƏRTAC-a Bakı Tikiş Evinin (BTE) satış şöbəsinin müdiri Etibar Əzimov məlumat verib.

O bildirib ki, BTE bu il də şagirdləri məktəbli forması ilə təmin etmək üçün hazırdır. Məktəbli formalarının satışı zamanı sıxlığın aradan qaldırılması və vətəndaşların rahat alış-veriş etmələri üçün BTE-nin Bakı, Sumqayıt və Xirdalanda 15 filialı fəaliyyət göstərir. Məktəbli geyimlərini və onun aksessuarlarını dəst və fərdi şəklidə almaq olar. Eyni zamanda, ilboyu BTE-nin bütün satış

mərkəzlərində məktəbli forması və aksessuarları satılır.

Qeyd edək ki, BTE-nin "Qaynar xətt"i də fəaliyyət göstərir. Maraqlananlar (012) 597-45-39 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

YAŞAMAQ ÜÇÜN ƏN YAXŞI ŞƏHƏR

Yaşamaq üçün dünyanın ən yaxşı yeri Avstraliyanın Melburn şəhəri seçilib. Bu şəhər Avstraliyanın ikinci ən böyük və kosmopolit şəhəridir.

Anadolu Agentliyi xəbər verir ki, bu, "The Economist Intelligence Unit" tərəfindən dünyanın 140 şəhəri arasında aparılan araşdırma nəticəsində bəlli olub.

Melburn sabit, təhlükəsiz, sağlam mühit, mədəniyyət və təhsil sahələri də daxil olmaqla mümkün 100 baldan 97,5-ini toplayıb.

Qeyd edək ki, artıq 7 ildir bu şəhər "dünyanın yaşamaq üçün ən yaxşı bölgəsi" seçilir.

ALLAH RƏHMƏT ELƏSİN

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Mətbuat xidmətinin rəisi Mehman Mehdiyevə, qardaşı

RƏŞAD MEHDİ OĞLU MEHDİYEVİN

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mətbuat xidmətinin kollektivi Mətbuat xidmətinin rəisi Mehman Mehdiyevə, qardaşı

RƏŞAD MEHDİ OĞLU MEHDİYEVİN

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1005, Bakı şəhəri,
M. Ə. Rəsulzadə küçəsi, 5
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2372